**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ**

Əlyazması hüququnda

**ELZA ƏLİPAŞA qızı MOLLAYEVA**

# PEDAQOJİ TƏMAYÜLLÜ ALİ MƏKTƏB TƏLƏBƏLƏRİNƏ GENDER BƏRABƏRLİYİ DƏYƏRLƏRİNİN AŞILANMASININ İMKAN VƏ YOLLARI

5804.01 – Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi

Pedaqogika üzrə elmlər doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2018**

Dissertasiya işi Azərbaycan Dövlət Pedaqoji Universitetinin İbtidai təhsilin pedaqogikası və metodikası kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Fərrux Abbas oğlu Rüstəmov**
*pedaqogika üzrə elmlər doktoru, professor, Əməkdar elm xadimi*

**Rəsmi opponentlər:** **Hümeyir Hüseyn oğlu Əhmədov**
*pedaqogika üzrə elmlər doktoru, professor*

**Rəna Seyidrza qızı Mirzəzadə**
*fəlsəfə üzrə elmlər doktoru, professor*

**Ramiz İbrahim oğlu Əliyev**
*psixologiya üzrə elmlər doktoru, professor, Əməkdar müəllim*

**Aparıcı təşkilat:** Bakı Slavyan Universitetinin Pedaqogika və psixologiya kafedrası

Müdafiə “27” mart 2018-ci il tarixdə saat $14^{00}$ -da Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində fəaliyyət göstərən BD.02.061 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Az 1000, Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 68, ADPU, əsas bina, Kiçik akt zalı

Dissertasiya ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Kitabxana -İnformasiya Mərkəzində tanış olmaq olar.

Avtoreferat “ ___” _________ 2018-ci il tarixdə göndərilmişdir.

**Dissertasiya □uras□n□n elmi katibi:** **R.Z. H□mb□t□liyev,**
*Riyaziyyat □zr□ elml□r doktoru, dosent*

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Tədqiqatın aktuallığı**. Azərbaycanda demokratik qanunlara əsaslanan cəmiyyətin, hüquqi dövlətin yaradılmasında cinslərin bərabər hüquqluluğu məsələsi əsas yerlərdən birini tutur. Həm qlobal, həm də milli-mənəvi dəyərlər baxımından cinslərin qarşılıqlı münasibətlərində düz mütənasibliyin saxlanılması aktual problem kimi meydana çıxır və prioritet məsələyə çevrilir.

Cəmiyyətdə demokratiyanın bərqərar olmasını və hər iki cinsin bərabər hüquqlara malik olmasını prioritet məsələ kimi qarşıya qoyan dövlətimiz bu sahədə bir sıra mühüm addımlar atmışdır. Azərbaycan Respublikasının Milli Məclisi 1992-ci il avqustun 4-də BMT-nin «Qadınların siyasi hüquqları haqqında» Konvensiyasına qoşulmuşdur. 1994-cü ildə Heydər Əliyevin fərmanı ilə Qadınların IV Ümumdünya Pekin Konfransında iştirak üçün Milli Hazırlıq Komitəsi yaradıldı. 1995-ci il 30 iyunda isə «Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında» BMT Konvensiyası (GEDAW) ratifikasiya edildi. Beləliklə də ölkəmizdə gender siyasətinin uğurlu həlli üçün ümummilli liderimiz tərəfindən bu siyasətin hüquqi əsasları yaradıldı və bu sahədə qəbul edilmiş hüquqi sənədlər regionda inkişafa təkan verdi. Məhz bu qanunvericilik bazası Azərbaycan qadını üçün həm siyasi, həm də beynəlxalq arenada yeni perspektivlər açdı. 6 mart 2000-ci ildə Ümummilli lider Heydər Əliyev tərəfindən «Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında» Fərman imzalanmışdır. Heydər Əliyev siyasətinin uğurlu davamçısı Prezident İlham Əliyev də gender balansının qorunub saxlanılması və bu sahədə qanunvericilik bazasının daha da möhkəmləndirilməsi məqsədilə 2006-cı il, 10 oktyabr tarixdə «Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında Azərbaycan Respublikasının Qanunu»nu imzalamışdır. Bu baxımdan gender problemlərinə müraciət, tələbələrə gender tədqiqatlarının öyrədilməsi, genderə dair biliklərin sistemləşdirilməsi, genderin tarixi inkişaf yolunun təhlil edilməsi və onun müxtəlif tarixi mərhələlər aspektindən öyrənilməsi günün vacib məsələlərindən biridir.

Tədqiq etdiyimiz gender problemi cəmiyyətdə insan hüquqlarının həm kişi, həm də qadın üçün bərabərliyini özündə ehtiva edir. XVII əsrdə yaranıb, XIX əsrdə təşəkkül tapan qadın azadlığını, qadın hüquqlarını mübarizə obyektinə çevirən feminizm ictimai-siyasi hərəkat olaraq müasir

dövrün insan hüquqları tələblərinə tam cavab verə bilmir. Yeni elmi istiqamət olan gender insan hüquqlarının fəlsəfi-sosioloji-pedaqoji cəhətdən düzgün təyin edilməsində əsas sahə sayıla bilər. Belə ki, o yeni elm kimi təşəkkül tapmaqla bərabər, özündən əvvəlki «cinslərin qarşılıqlı münasibəti»lə bağlı olan nəzəriyyələrə tənqidi yanaşmış, cəmiyyətin sosial-siyasi həyatında hər iki cinsin bərabərsəviyyəli rolunu demokratik cəmiyyətin əsas şərtlərindən biri kimi səciyyələndirmişdir. Bu elmi istiqamət cins problemlərinin kompleks həllində (xüsusilə də qadın problemlərinin) fəlsəfə (cinslərin bərabərhüquqluluğu, kişi və qadınların təlim qabiliyyətlərinin eyniliyi, kişi və qadınların təbii təyinatları və s), sosiologiya (cəmiyyətdə cinslərin bərabərhüquqluluğunun təmin edilməsi, hər iki cinsin sosial rolları), hüquq (cinslərin bərabərliyinin hüquqi əsasları), differensial psixologiya (oğlan və qızlarda diqqət, hafizə, riyazi və nitq qabiliyyətləri, emosiyalar və s), sosial psixologiya (gender kateqoriyasında bioloji və sosial tərəflər arasındakı nisbət, gender identikliyi şəxsiyyətin formalaşmasında əsas amillərdən biri kimi), tarix (tarixi dövrlərdə cinslərin sosial bərabərliyinə münasibətin təhlili, cəmiyyətin təkamülündə gender nəzəriyyəsinin roluna tarixi rakursdan baxış), kulturalogiya (müxtəlif mədəniyyətlərdə gender aspektləri, mədəniyyətlərin inteqrasiyasında genderin rolu və yeri), psixofiziologiya (cinslərin şüur, psixika və beyinin koqnitiv fəaliyyət baxımından əsaslı fərqləri, oğlan və qızlarda yorğunluq, iş qabiliyyətlərinin spesifikası), pedaqogika ("gender" tərbiyəsi və "gender təhsili" anlayışlarının mahiyyəti, genderin bəşəri, pedaqoji dəyər kimi qəbul edilməsi, gender tərbiyəsi mənəvi tərbiyənin tərkib hissələrindən biri kimi, təhsildə gender problemləri və s.) mövqeyindən irəli gələn sahələrarası analizə əsaslanmalıdır.

Bir çox tədqiqatçılar(Ə.S.Abasov, R.S.Mirzəzadə, L.C.Mövsümova, K.C.Ağayeva, V.A.Tişkov, E.V.Koçkina, S.L.Rıkov və b.) getdikcə qadının dövlət idarəçiliyində, elmdə, tibbi sahədə, tərbiyə prosesində, mədəniyyətdə, incəsənətdə artan rolunu qeyd edirlər.

Bu gün pedaqogikada gender yanaşmasının pedaqoji fəaliyyətin bütün sahələrində nəzərə alınması xüsusi psixoloji-pedaqoji kateqorial sistemə ehtiyacı olan yeni elmi istiqamətin formalaşmasını aktual edir.

Gender bərabərliyi yalnız bir cinsə deyil, hər iki cinsə aid olduğundan onların bu istiqamətdə tərbiyə edilməsi işi cəmiyyətdə gender bərabərliyinin əldə edilməsini asanlaşdırır. Gender bərabərliyi müasir dövrün ümumbəşəri dəyərlərindən biri kimi qəbul edilməkdədir və bu da onu elmi paradiqma səviyyəsinə qaldıran amillərdən ən əsasıdır. Şübhəsiz, qərb və

şərq dəyərlər sistemi öz tərbiyəvi mahiyyət və məzmununa görə bir birindən fərqlənirlər. Amma bu gün Azərbaycanın Avropa məkanına inteqrasiyası dəyərlərə münasibətdə şərq və qərb dəyərlər sisteminin sintezini zəruri edir. Prof. Ə.X.Paşayev və F.A.Rüstəmov bəşəri dəyərləri belə xarakterizə edirlər: «Konkret cəmiyyət və mədəniyyətlə, konkret tarixi dövrlə bağlanmayan, insanların əksəriyyəti tərəfindən qəbul edilən dəyərlər ümumbəşəri dəyərlər hesab olunur» .

Gender tərbiyəsinin tədqiqi (Ə.Ə.Əlizadə, Ə.S.Bayramov, İ.S.Kon, A.V.Mudrik, E.N.Kamenskaya, E.V.Bondarevskaya, E.P.Yarskaya-Smirnova və və b.) onu deməyə əsas verir ki, həm psixologiyada, həm də pedaqogikada ənənəvi olaraq tədqiqatçılar cinsi-rol sosiallaşmasına və cinsi tərbiyəyə daha cox diqqət ayırmışlar. Ancaq son zamanlarda həm təhsil, həm də tərbiyədə gender yanaşmalarını tədqiq edən elm sahəsi formalaşdı və aşağıdakı istiqamətlərdə tədqiqat aparılmağa başlandı: a) təhsildə gender sosiallaşması (E.P.Yarskaya-Smirnova); b) məktəb proqramlarının və kurslarının gender analizi və dərsliklərdə gender stereotipləri (E.P.Yarskaya-Smirnova, M.L.Sabunaeva; c) tərbiyə və təhsilə gender stereotiplərinin təsiri (S.N.Nadolinskaya, O.N.Safonova; ç) ali məktəblərdə tədrisin gender aspektləri (L.V.Ştılyova, L.P.Şustova; d) gender təhsili (T.A.Qorjkova).

Azərbaycanda pedaqoji sahədə mövcud olan gender problemlərinə pedaqogika (H.M.Əhmədov, N.M.Kazımov, Y.R.Talıbov, Ə.Ə.Ağayev, S.M.Quliyev, A.N.Abbasov, L.N.Qasımova, F.A.Rüstəmov, F.B.Sadıqov, R.L.Hüseynzadə), psixologiya (R.F.İbrahimbəyova, R.İ.Əliyev, S.B.Hacıyeva, L.E.Qurbanova, V.V.Nağıyeva), fəlsəfə (R.S.Mirzəzadə, Ə.S.Abasov, Z.Ə.Quluzadə, L.C.Mövsümova, K.C.Ağayeva və b.) sahəsində aparılan tədqiqatlarda ümumi fonda toxunulsa da genderin məhz tərbiyə ilə daha sıx bağlılığını nəzərə alsaq, pedaqoji sahənin gender tədqiqatlarında daha əsaslı rolu danılmazdır. Məhz bu amil pedaqogika elmində gender probleminə ciddi yanaşmanı və bu sahədə geniş tədqiqatı zəruri edir.

Müasir dövrdə insan haqları barədə beynəlxalq qanunvericiliyin insanların cinsindən, irqindən, dilindən, dinindən və s. asılı olmayaraq bərabər hüquqlara malik olmaları haqqında təminatına baxmayaraq, qadınlar kişilərlə bərabər torpaq, əmlak, mülkiyyət, təhsil, işə götürmə və s. hüquqlara malik deyildirlər. BMT-nin statistik məlumatına görə savadsızlıq, təhsildən kənarda qalmada qadınlar dünya savadsızlarının 3/2-ni təşkil edirlər.

Son illərdə Azərbaycanda 15 və yuxarı yaşlı əhalinin savadsızlıq

səviyyəsində savadsızlıq əmsalı kişilər üçün 0,1%-sə, qadınlar üçün bu göstərici 0,3 % təşkil edir.

Azərbaycanda təhsilin gender aspektləri və xüsusilə də pedaqoji kadr hazırlığı sahəsində gender yanaşması hələ kifayət qədər öyrənilməmiş və tədqiq edilməmiş sahə sayıla bilər. Müəllim hazırlığında gender baxımından müəyyən təzadlar bu sahədə fəaliyyətə öz mənfi təsirini göstərir. Belə ki, təhsilin məzmunu ilə təlim fəaliyyətinin həyata keçirilməsi arasındakı gender təzadları özünü burada tədris edilən fənlərin maskulin məzmunu və fənlərin tədrisinin daha çox qadın müəllimlər tərəfindən həyata keçirilməsində biruzə verir. Eyni zamanda bu gün pedaqoji kadr hazırlığında birbaşa məsuliyyət daşıyan kafedraların özlərində də kontingent baxımından gender disbalansının olması tələbələrə gender dəyərlərinin aşılanması prosesində çətinliklər yaradır. Müşahidələrimizdən belə nəticəyə gəldik ki, bu kafedralarda fəaliyyət göstərənlər içərisində qadınlar çoxluq təşkil edirlər.

Təlim prosesi yetişən gənc nəslin mənəvi tərbiyəsində mühüm rola malikdir.Tələbələrə gender münasibətlərinin mənəvi və psixoloji cəhətdən aşılanması işini də təlim prosesində həyata keçirmək olar. Çünki gələcək nəsilləri indiki tələbələr ata – ana və müəllim kimi tərbiyə edəcəklər.

Müasir dövrdə aparılan gender tədqiqatlarının vacib problemlərindən biri təhsil sistemində gender bərabərliyinə nail olmaqdır. Cünki təhsil cinsindən asılı olmayaraq insanların ictimai həyatın bütün sahələrində iştirakına imkan yaradır. Bu mənada təhsil cəmiyyətdə gender bərabərliyinə nail olmaq vasitələrindən ən əsasıdır. Bu gün bütövlükdə təhsil sistemində gender bərabərsizliyi problemi xüsusilə aktualdır. Son zamanlar Azərbaycanda gender təhsili ilə bağlı bir sıra tədbirlər həyata keçirilir. Respublikamızda mövcud olan bir sıra ali təhsil müəssisələrində təhsil proqramlarına gender problemlərini əhatə edən fənlər və xüsusi kurslar daxil edilmişdir.

Tədqiqatımızın aktuallığı pedaqoji təmayüllü ali məktəb tələbələrinin təhsildən sonrakı pedaqoji fəaliyyəti ilə də birbaşa bağlıdır. Belə ki, bu ali məktəblərə daxil olanlar arasında qızlar çoxluq təşkil etsələr də ali məktəbi bitirdikdən sonra onların bir çoxu işləmir və ya ailənin tələbi ilə daha çox öz fəaliyyətlərini ailə qayğılarına həsr edirlər. Baxmayaraq ki, bu gün təhsil sahəsində qadınlarımız çoxluq təşkil edir, bəzi ailələrin qadınların işləməsinə neqativ münasibəti nəticəsində cəmiyyət özünün pedaqoji sahədə güclü potensiala malik olan qadın müəllimlərindən məhrum olur. Təəssüf ki, bunu yalnız pedaqoji sahədə təhsil alan qızlara yox, eyni zamanda digər sahələr üzrə də təhsil alan qızlarımıza aid etmək olar.

Təhsildən sonrakı dövrdə pedaqoji və ictimai fəaliyyətdən uzaqlaşan qadın cəmiyyətdə reproduktiv funksiyalarla assosiasiya edilən vəzifələri ( ailənin əsas ehtiyaclarının ödənilməsi, şəxsi təsərrüfatın aparılması, ev və uşaqların qayğısı) də öz üzərinə götürməyə məcbur olur.

Oğlan tələbələrin də ali təhsili başa vurduqdan sonra hansı sahədə işləmələri sual altında olur. Cəmiyyətdə müəllimlik peşəsinin nüfuzunun aşağı düşməsi, təhsil sahəsində əmək haqqının az olması onların başqa sahələrə yönəlmələrinə şərait yaradır. Bu səbəbdən kişi müəllimlərin qadın müəllimlərə nisbətən məktəblərdə az olması ümumilikdə təhsil sahəsində feminliyin artmasına birbaşa təsir göstərir.

Ayrı-ayrı fənlər üzrə müvafiq mövzuların tərbiyəvi cəhətlərinin nəzərə alınması orta məktəbdə şagirdləri, ali məktəbdə isə tələbələri gender bərabərliyi – qadın və kişi arasında sosial bərabərlik, bu bərabərliyin elmi-psixoloji və mənəvi əsasları ilə bağlı zəruri biliklərlə silahlandıra bilər. Tələbələrə gender bərabərliyinin aşılanması zamanı bir məsələni xüsusilə diqqət mərkəzində saxlamaq lazımdır: Azərbaycanda gender siyasətinin həyata keçirilməsində yerli milli adət-ənənələrin, xüsusiyyətlərin, milli mentalitetin, milli düşüncə tərzinin, cəmiyyətimizdə hələ də patriarxal qayda-qanunların mövcüd olmasının nəzərə alınması vacib şərtlərdən biri kimi qəbul olunmalıdır.

Fikrimizcə, gender probleminin tarixilik və müasirlik baxımından araşdırlmasına ehtiyacın yaranması, genderin Azərbaycan elmində müəyyən mövqe qazanması, onun problemlərinin təhlili, tələbələrdə gender dünyagörüşünün formalaşdırılması tədqiqatın aktuallığını şərtləndirir.

Tədqiqatın aktuallığını nəzərə alaraq dissertasiyanın mövzusunu «Pedaqoji təmayüllü ali məktəb tələbələrinə gender bərabərliyi dəyərlərinin aşılanmasının imkan və yolları» kimi müəyyənləşdirməyi məqsədəuyğun saydıq.

**Tədqiqatın obyekti** ali məktəb tələbələrinə gender bərabərliyinin aşılanması prosesidir.

**Tədqiqatın predmeti** pedaqoji təmayüllü ali məktəb tələbələrinə gender bərabərliyinin aşılanması üzrə işin sistemidir.

**Tədqiqatın məqsədi** gender anlayışının mahiyyətini və kateqoriyalarını pedaqoji aspektdən təhlil etməkdən, gender identikliyinin pedaqoji prosesdə nəzərə alınmasının əhəmiyyətini, onun qanunauyğunluqlarını, prinsiplərini və metodlarını, cəmiyyətin mədəni-tarixi inkişafında gender nəzəriyyəsinin yerini və rolunu müəyyənləşdirməkdən, ali pedaqoji məktəblərdə tədris edilən fənlərin gender baxımından imkanlarını öyrənməkdən,

təlim prosesində və auditoriyadankənar tədbirlərdə tələbələrə gender bərabərliyinin aşılanmasının imkan və yollarını üzə çıxarmaqdan ibarətdir.

**Tədqiqatın fərziyyəsi.** Təlim prosesində və auditoriyadankənar tədbirlərdə tələbələrə gender bərabərliyinin aşılanması üzrə işin mahiyyəti, məqsəd və vəzifələri, məzmunu, əsas istiqamətləri müəyyənləşdirilərsə və elmi cəhətdən əsaslandırılarsa, tələbələrdə gender dünyagörüşünün təşəkkülünü təmin edən idrak fəallığı yaradılarsa, onların gender tərbiyəsinin nəzəri və praktik modeli hazırlanarsa, pedaqoji şərtləri müəyyənləşdirilərsə pedaqoji təmayüllü ali məktəb tələbələrində gender mədəniyyəti formalaşdırmaq mümkün olar.

**Tədqiqatın vəzifələri**: gender bərabərliyi dəyərlərinin elmi – pedaqoji və psixoloji ədəbiyyatda qoyuluşunu öyrənmək;

- genderin sosial dəyər kimi mahiyyətini açmaq və pedaqoji aspektdən kateqorial sistemini müəyyənləşdirmək;
- gender bərabərliyi dəyərlərinin aşılanmasında ayrı-ayrı elmlərarası əlaqənin pedaqoji cəhətdən əsaslandırılması;
- tələbələrə gender dəyərlərinin aşılanması prosesində gender identikliyinin nəzərə alınmasının pedaqoji əhəmiyyətini göstərmək;
- təlim prosesində fənlərin və auditoriyadankənar tədbirlərin problem baxımından imkanlarını üzə çıxarmaq;
- humanitar fənlərin tədrisində gender probleminin xüsusi və ümumiləşdirilmiş pedaqoji təhlil nəticəsində öyrənilməsi;
- Azərbaycanda təhsilin gender aspektlərinin və pedaqoji kadr hazırlığında gender yanaşmasının əhəmiyyətini araşdırmaq;
- Azərbaycan tarixinin müəyyən dövrlərinə, dünya dinlərinə əsaslanaraq gender nəzəriyyəsinin inkişaf tarixini araşdırmaq;
- tələbələrə gender bərabərliyi dəyərlərinin aşılanmasında Azərbaycan ailəsinə məxsus ailədaxili münasibətlərin və milli mentalitetin nəzərə alınmasının pedaqoji əhəmiyyətinin müəyyən edilməsi;
- Azərbaycanda gender maarifləndirilməsinin təlim və tərbiyə ilə bağlı həlli yolunu göstərmək;
- Azərbaycanda həyata keçirilən dövlət gender siyasətinin sosial-pedaqoji aspektdən əhəmiyyətini araşdırmaq.
- gender bərabərliyi dəyərlərinin aşılanmasında gender stereotiplərinin təsirinin eksperiment yolu ilə müəyyənləşdirilməsi.

**Tədqiqatın metodoloji əsasını** pedaqoji fakt, hadisə və prosesləri öyrənmək, dərk etmək və dəyişdirmək məqsədilə tətbiq olunan prinsiplərin, metodların və nəzəri müddəaların məcmusu təşkil edir.

**Tədqiqatın metodları**. Tədqiqat zamanı aşağıdakı metodlardan istifadə edilmişdir: nəzəri-tarixi müqayisəli təhlil; pedaqoji mətbuatın və digər müvafiq elmi-tarixi materialların öyrənilməsi; müşahidə; müsahibə; anketləşdirmə; pedaqoji eksperiment.

Bu metodlardan nəzəri-tarixi müqayisəli metod tarixi prizmadan cinsi ayrı seçgiliyin yaranma səbəblərini, cəmiyyətin müxtəlif inkişaf mərhələlərində gah meydana çıxan, gah da itən qadın və kişi bərabərsizliyi məsələsinin yaranma səbəblərini, onun təzahürlərini üzə çıxarmaqla bərabər, həm də eyni səviyyədə inkişaf edən ölkələrdə qadınların vəziyyətini və onlara münasibəti özündə ehtiva edir. Tədqiq etdiyimiz problemdə genderlə bağlı spesifik genderologiya metodu əsas metod sayılır. Bu metod cəmiyyətdə qadın və kişi ilə bağlı olan bütün proses və hadisələrin kompleks sistemli yanaşmada öyrənilməsi ilə xarakterikdir. Eyni zamanda qadın məsələsinə tarixi-siyasi-sosial yanaşma öz sosial-siyasi hüquqlarının müdafiəsinə, cəmiyyətin ictimai-siyasi həyatına təsir göstərə bilən güclü hərəkatın təşkilinə qadir qadınların tarixi missiyası prinsipindən baxılmalıdır.

**Tədqiqatın elmi yeniliyi**. Dissertasiyada gender anlayışı pedaqoji aspektdən izah edilmiş, təlim prosesində və auditoriyadankənar tədbirlərdə tələbələrə gender bərabərliyinin aşılanmasının imkan və yolları müəyyənləşdirilmiş, gender tərbiyəsinin mahiyyəti, vəzifələri, məzmunu, nəzəri və praktik əsasları müəyyənləşdirilmişdir.

**Tədqiqatın praktik əhəmiyyəti**:

- gender problemlərinin həllində qarşıya çıxan çətinliklərin aradan qaldırılmasında tədqiqat materiallarından geniş istifadə edilə bilər;
- tədqiqatın materiallarından «Gender pedaqogikası», «Gender psixologiyası», «Sosial psixologiya», «Gender sosialogiyası», «Sosial pedaqogika», «Pedaqogika», «Pedaqogika tarixi» kurslarının tədrisində geniş istifadə oluna bilər;
- tədqiqatın materiallarından istifadə etməklə tələbələrdə gender mədəniyyəti formalaşdırmaq mümkündür.

**Tədqiqatın nəzəri əhəmiyyəti**. Tədqiqatın nəticələri pedaqogika nəzəriyyəsinin, pedaqoji fikir tarixinin və sosial pedaqogikanın kateqorial aparatını yeni müddəalarla zənginləşdirəcək. Belə ki, pedaqogikanın ümumi kateqoriyalarına cins, gender, maskulinlik, feminlik, gender identikliyi, gender stereotipləri, gender ideologiyası, gender rolları, gender tarazlığı, gender idealları, gender tərbiyəsi anlayışlarının daxil edilməsi tələbələrdə gender mədəniyyətinin formalaşmasına kömək etməklə yanaşı yeni pedaqoji texnologiyaların hazırlanmasına yardımçı olacaqdır.

**Tədqiqatın mərhələləri**. Tədqiqat işi şərti olaraq aşağıdakı mərhələlərə bölünür:

Birinci mərhələ - hazırlıq mərhələsində (2008-2010) problemlə bağlı fəlsəfi, psixoloji, pedaqoji, tarixi, sosioloji, kulturoloji ədəbiyyat öyrənilmiş, təhlil edilmişdir. Tədqiqatın yerli və xarici pedaqoji, psixoloji, fəlsəfi ədəbiyyatda işlənmə səviyyəsi ilə tanış olunmuş, dissertasiyanın plan-prospekti tərtib edilmişdir.

İkinci mərhələ - nəzəri (2010-1012) mərhələsində tədqiqatın nəzəriyyəsi və onun reallaşdırılmasının yolları, şərtləri işlənib hazırlanmışdır.

Üçüncü mərhələ - təcrübi-eksperimental (2012-2014) mərhələsində işci fərziyyəsinin doğruluğunu yoxlamaq üçün respublikanın bir sıra ali məktəblərində, Azərbaycan Dövlət Pedaqoji Universitetində və Azərbaycan Müəllimlər İnstitutunda üç mərhələdə: müəyyənedici, öyrədici və yoxlayıcı mərhələlərdə pedaqoji eksperiment keçirilmişdir.

**Müdafiəyə aşağıdakı müddəalar çıxarılır**:

- ali pedaqoji məktəb tələbələrinə gender bərabərliyinin aşılanması müasir sosial-pedaqoji prosesin yeni modelinin əsasını təşkil edir;
- təlim prosesində gender identikliyinin nəzərə alınması pedaqoji prosesə müsbət təsir göstərən amil kimi qiymətləndirilməlidir;
- tələbələrdə gender bacarıqlarının formalaşdırılması pedaqoji kadr hazırlığında əsas amillərdən biridir;
- gender bərabərliyi tarixən Azərbaycan üçün yeni problem deyil və Avropadan əvvəl Şərqdə onun mövcudluğu genderin şərq ənənələrində yerini və rolunu müəyyən edir;
- təlim prosesində və auditoriyadankənar tədbirlərdə tələbələrdə gender mədəniyyətinin formalaşdırılması bilavasitə milli xüsusiyyətlərlə şərtlənir;
- təlim prosesində və auditoriyadankənar tədbirlərdə tələbələrə gender bərabərliyinin aşılanması onlarda siyasi mədəniyyətin formalaşdırılmasının mühüm şərtidir;
- tələbə oğlan və qızların şəxsiyyətlərarası münasibətlərində tolerantlığın və gender bacarıqlarının formalaşdırılmasına gender stereotipləri köklü təsir göstərir;
- Azərbaycan və Avropa klassik fəlsəfi-pedaqoji fikir nümayəndələrinin cinslərin sosial bərabərliyi ilə bağlı fikirləri müasir gender nəzəriyyəsinin əsasını təşkil edir;
- təlim prosesində və auditoriyadankənar tədbirlərdə tələbələrə gender bərabərliyinin aşılanmasının səviyyəsi onlara pedaqoji nəzarət və

rəhbərliyin səviyyəsindən asılıdır%

- ali məktəb dərsliklərinin gender ekspertizasından keçirilməsi tələbələrə gender bərabərliyinin aşılanmasının əsas şərtlərindən biridir.

**Tədqiqatın aprobasiyası.**Tədqiqatın əsas müddəaları və nəticələri «Hüseyn Cavid yaradıcılığı cağdaş təfəkkür işığında» (Hüseyn Cavid-130) Beynəlxalq elmi konfransında, «Azərbaycanşünaslığın aktual problemləri»-IV Beynəlxalq elmi konfransında, «Müəllim hazırlama siyasəti və problemləri» beynəlxalq simpoziumunda, «Təhsil sistemində gənc nəslin təlim-tərbiyəsi üzrə işin təşkili və onun yaxşılaşdırılması istiqamətləri» mövzusunda keçirilmiş Respublika elmi konfransında, Gənc tədqiqatçıların ümumrespublika elmi konfransında dinlənilmiş və çıxışlarda müzakirə edilmişdir. Bütün bunlarla yanaşı dissertasiyanın əsas məzmunu, başlıca müddəaları, nəticə və tövsiyələri AAK-ın tövsiyə etdiyi jurnallarda 32 məqalə (bunlardan 5-i xaricdə cap olunmuşdur) şəklində çap olunmuşdur.

**Dissertasiyanın quruluşu**. Dissertasiya giriş, 22 yarımfəsli özündə birləşdirən 4 fəsildən, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQATIN MƏZMUNU

**"Giriş"**də tədqiqat mövzusunun aktuallığı, obyekti, predmeti, məqsədi, vəzifələri, fərziyyəsi, müdafiəyə təqdim olunan müddəalar göstərilir, elmi yeniliyi, metodoloji əsası, praktik və nəzəri əhəmiyyəti şərh olunur.

**«Pedaqogikada gender yanaşmasının nəzəri-metodoloji əsasları»** adlanan və üç yarımfəsildən ibarət olan I fəsildə tələbələrə gender bərabərliyinin aşılanmasının nəzəri-metodoloji məsələləri araşdırılmış, gender anlayışının mahiyyəti, kateqoriyaları, pedaqoji komponentləri geniş tədqiq edilmişdir**. *«Gender» anlayışının mahiyyəti və kateqoriyaları»*** adlı birinci yarımfəsildə gender anlayışının mahiyyəti geniş şərh edilir.İctimai biliklərin yeni istiqamətlərindən biri olan və XX əsrin elmi-kateqorial aparatına daxil edilmiş gender ingilisdilli feminist ədəbiyyatdan götürülmüş və tərcümədə bu söz «sosial cins» mənasını verir. O, eyni zamanda bioloji və sosial qarşıdurmanı da özündə ehtiva edir. Genderin müasir tərifinə görə «insanlar yalnız bioloji olaraq kişi ya da qadın cinsinə mənsub doğulurlar, inkişaf prosesində isə, ilk növbədə ailədə və cəmiyyətdə tərbiyə almaqla onlar oğlan və qız olmağı öyrənir, böyüyəndə qadın və ya kişiyə çevrilirlər. Onlar müvafiq davranışa və baxışlara, rol və fəaliyyətə, özgə adamlara necə

münasibət bəsləməyə öyrədilirlər... Gender rolunu müəyyən edən də elə bu davranışdır»[1].

Gender anlayışının elmə daxil edilməsinin bir sıra səbəbləri vardır: təhlili bioloji müstəvidən sosial müstəviyə keçirmək; «cinslərin təbii təyinatı» haqqında mövcüd olan fərziyyə və stereotipləri təkzib etmək, cinslər arasındakı sosial fərqləri aradan qaldırmaq və s.

«Gender» anlayışı bioloji və sosial cinslər arasındakı fərqin dərk olunması nəticəsində yaranmışdır. Belə ki, bioloji cins insanların anatomik –bioloji xüsusiyyətlərinin toplusudur ki, onun əsasında da insanlar bir-birini kişi və ya qadın olaraq qəbul edirlər. Gender kişi və qadının cəmiyyət tərəfindən yaradılmış rollarında, davranışında, mental və emosional xüsusiyyətlərindəki fərqdir. Gender tədqiqatlarının aparılması göstərir ki, müasir cəmiyyətdə qadınlarda olduğu kimi, kişilərdə də bir sıra sosial problemlər var. Bu baxımdan hər iki cinsə aid olan problemi ayrı-ayrılıqda tədqiq etmək əvəzinə onları bir-biri ilə vəhdətdə araşdırmaq uğurlu nəticə verə bilər.

Cəmiyyətin sosial quruluşunun əsas ölçülərindən biri olaraq gender müasir dövrlə bağlı olaraq, sosial sistemin nizamlanmasında əsaslı rola malik olan əsas dəyər kimi qiymətləndirilə bilər. Bəs dəyər nədir? Prof. Ə.X.Paşayev, F.A.Rüstəmova görə “fərd, sosial qrup və ya bütövlükdə cəmiyyət üçün zəruri olan, onların tələbatlarını, maraq və məqsədlərini ödəməyə qadir olan hər şey dəyərlər kimi başa düşülür”[2]

Gender həm cinslərin bir birinə, həm də cəmiyyətin cinslərin sosial rollarına münasibətində əhəmiyyətli olan və şəxsi, ictimai əhəmiyyətə malik sosial dəyərdir. XX əsrin 60-cı illərindən etibarən fəlsəfənin mövzusu olan dəyər ancaq insan və cəmiyyətə tətbiq olunan, insandan kənarda mövcud olmayan kateqoriyadır. «dəyər interpretasiyadır (latın sözü olub interperetasiya izah, təfsir, şərh deməkdir). İnterpretasiya zamanı subyekt özünün konkret obyektə və ya ideala münasibətini, nəyə üstünlük verdiyini ifadə edir»[3]. İctimai inkişafla bağlı olaraq dəyişən dəyərlər öz əhəmiyyətini itirmir və bütün dövrlər üçün dəyər olaraq qalır. Əgər biz tarixi dövrləri gender aspektindən təhlil etsək görərik ki, gender bərabərliyi də dəyər kimi bütün ictimai-siyasi-tarixi dövrlərdə öz mahiyyətini saxlamışdır. O, sosial-

---

1 Gender təliminə dair metodik vəsait. Bakı: Qərb Universiteti Gender Araşdırmalar Mərkəzi, 2002, s.5

2 Ə.X.Paşayev., F.A.Rüstəmov. Pedaqogika. Yeni kurs. Bakı:Çaşıoğlu, 2002, s.69

3 Yenə orada. s. 68

tarixi təcrübə əsasında yaranmış və sosial tərəqqinin aparıcı istiqamətlərindən biri kimi dəyərləndirilməlidir. Gender bərabərliyi bütün xalqlar və millətlər üçün aktual olduğundan onu həm də ümumbəşəri dəyər kimi də səciyyələndirmək olar.

Gender bərabərliyi dəyərlərinin pedaqoji cəhətdən təhlil edilməsində onlara mühüm əxlaqi dəyərlər olan şərəf və ləyaqət prizmasından baxılması bu istiqamətdəki tərbiyə işini asanlaşdırar. İnsanın şəxsi xüsusiyyətlərini, mənəvi simasını, «daxili mən»ini təsdiq edən mühüm əxlaqi dəyər və meyar olan şərəf və ləyaqət hər bir şəxsin cəmiyyətdə tutduğu fəal mövqeyində, nüfuzunda, qazandığı yaxşı ad-sanında ifadə olunur. Şərəf hissinə malik olan hər bir fərd cinsindən asılı olmayaraq onu əhatə edən adamların və onu yetişdirən cəmiyyətin ona verdiyi müsbət qiymətləndirməni həyatında əsas amilə çevirir.

Gender bərabərliyi (cinslərin bərabərliyi – eqalitarlıq ) – qadın və kişilərin sosial hakimiyyətdə bərabər paya, ictimai ehtiyatlara, bərabər haqqa malik olmalarını, habelə onların hüquq və imkanlarının bərabərliyini nəzərdə tutur.

İkinci yarımfəsil ***«Pedaqoji prosesdə gender identikliyinin nəzərə alınmasının əhəmiyyəti»*** adlanır. Uzun müddət pedaqogika ənənəvi patriarxal yanaşmaya əsaslanmış, insanın cinsinin onun həyatında və fəaliyyətində oynadığı əsaslı rolu bu vaxta qədər pedaqogikada elmi şəkildə az tədqiq edilmişdir.

Müasir şəraitdə cinsi fərqləri nəzərə almayan elm az səmərəli sayılmaqla, ancaq "orta" səviyyəli tələbənin yetişdirilməsinə hesablanmışdır. Dövrümüzün gender nöqteyi-nəzərindən aparılan elmi tədqiqatları bir daha təsdiq edir ki, tələbələrin təlim prosesində onların təkcə intellektual və sosial statusları yox, həm də cinsi mənsubiyyəti nəzərə alınmalıdır. Belə ki, XXI əsrin paradiqmalarından biri olan genderə əsaslanan yanaşma təlim-tərbiyə prosesinə münasibəti dəyişir. Belə yanaşma təlim prosesində oğlan və qızların qavramasında, tələbatlarında və maraqlarında cinsi fərqləri nəzərə almağı və buna uyğun tədris materialının seçilməsilə bərabər, ünsiyyət üslubuna da fikir verməyi zəruri edir.

Tədris prosesində tələbələrə gender identikliyinə əsasən yanaşma cinslərin şüur, psixika və beynin koqnitiv fəaliyyəti baxımından əsaslı fərqlərin olduğunu ortaya qoyur. Gender identikliyində dərketmə kişilik və qadınlığın mədəni təyinatında əks olunur. İnsanın beyin yarımkürələri sağ və sol yarımkürələrdən təşkil olunmuşdur ki, bunlar da döyənəkli cisim vasitəsilə bir-birilə birləşirlər. "Beynin sağ və sol yarımkürəcikləri arasında infor-

masiya mübadiləsini həyata keçirən döyənəkli cisim qadınlarda kişilərə nisbətən qalındır. Hər iki yarımkürə arasındakı əlaqə qadınlarda kişilərə nisbətdə 30% çoxdur"[1]. Bunu tələbələrlə aparılan fəal və interaktiv dərslərdə də görmək olar. Belə ki, disskusiya zamanı oğlanlar məntiqə (sol yarımkürəciyə) əsaslansalar da, sonra emosional gərginlik olmadan sağ yarımkürəcik bu prosesə qoşulur. Qızlarda isə emosional hisslər hər iki yarımkürə ilə geniş əlaqəli olur və hər iki yarımkürə beynin digər funksiyaları ilə bərabər eyni vaxtda işə düşür. Bunu oğlan və qızların ətrafdakılar ilə ünsiyyətindən də sezmək olar: qızların ünsiyyəti daha çox əməkdaşlıq münasibətlərinə əsaslandığı halda, oğlanlar qarşı cinslə ünsiyyətdə"məmur-işçi" modelinə üstünlük verirlər.

Oğlan tələbələrdə qızlara nisbətən güclü olan abstrakt dərketməni, yaradıcılığa meyli, əşyanın və ya hadisənin konkret xarakterini qavramasını beynin sağ yarımkürəciyi həyata keçirir. Qızlarda isə bu vəzifəni sol yarımkürə həyata keçirir. Onlarda tədris materialının mənimsənilməsi zamanı dərslikdəki informasiyanın emosional-obrazlı qavrama qabiliyyəti oğlanlara nisbətən daha güclü olur.

***«Tələbələrə gender bərabərliyi dəyərlərinin aşılanmasının nəzəri əsasları»*** adlı üçüncü yarımfəsildə gender elminin qanunauyğunluqları və prinsipləri geniş şərh edilmişdir. Problem baxımından gender bərabərliyinin aşılanmasında əsas hesab edilən qanunauyğunluqlar belə təsnif edilir:

1. Qrupun tərkibinin tarazlığı qanunauyğunluğu (gender tarazlığı prinsipindən irəli gəlir). Bu qanunauyğunluğa görə qrupun gender tərkibi balanslaşdırılmalıdır.

2. Gender identikliyinin formalaşması qanunauyğunluğu. İnsanın kişi və ya qadın qrupuna mənsubiyyətini xarakterizə edən bu qanunauyğunluğa görə əgər oğlan və qızlarda gender idealları formalaşıbsa bu hər iki cinsin nümayəndələrinin adekvat qiymətləndirilməsinə və cinslərarası münasibətlərin mədəniyyətinə dəlalət edir.

3. Müəllim (pedaqoq) tərkibinin gender bərabərliyi qanunauyğunluğu. Bu qanunauyğunluğa görə, məktəblərdə pedaqoji kontingentin tərkibində gender balansının saxlanılması tərbiyə prosesinə birbaşa müsbət təsir göstərən amildir.

4. Gender davranış modelinin formalaşması qanunauyğunluğu (eqa-

---

[1] Рыков С.Л. Гендерные исследования в педагогике // Педагогика.2001, № 7, стр.17-22

litarizm prinsipindən irəli gəlir). Bu qanunauyğunluq tərbiyə olunanlarda qadın və kişi davranışında eqalitar mövqeyin nəzərə alınması ilə onların daha yaxşı adaptasiyasına və özünüreallaşdırmasına şərait yaradır.

5. Tərbiyə olunanlarda gender xarakterinin formalaşması qanunauyğunluğu gender identikliyinin formalaşması prinsipindən irəli gəlir və bu qanunauyğunluğa görə qrup daxilində həm oğlanların, həm də qızların olması oğlanlarda kişilik, qızlarda isə qadınlıq xüsusiyyətlərinin formalaşmasına müsbət təsir göstərir.

Tədqiqat zamanı tələbələrə gender bərabərliyinin aşılanması prosesində istinad ediləcək prinsiplər belə qruplaşdırıldı:

1. Təkcə gender xüsusiyyətlərini deyil, eyni zamanda insanın sosial inkişafına təkan verən ümumi prinsiplər: təbiətəmüvafiqlik prinsipi, mədəniyyətəmüvafiqlik prinsipi, fərdi yanaşma prinsipi, dəyər çalarlı istiqamət prinsipi, özünüaktuallaşdırma prinsipi, seçmək prinsipi, yaradıcılıq və uğur prinsipi, inam və dəstək prinsipi.

2. Ancaq gender yanaşmasını özündə ehtiva edən prinsiplər: eqalitarizm prinsipi, gender identikliyinin formalaşması prinsipi, gender tarazlığı prinsipi, mühiti nəzərəalma prinsipi. Bu prinsiplərin bəzilərinin elmi izahını verək:

a) pedaqogikada gender yanaşmasının baza prinsipi olan və cinslərin bütün sferalarda bərabərliyini nəzərdə tutan eqalitarizm prinsipini S.V.Ştılyova gender tərbiyəsi, İ.S.Klesina gender sosiallaşması, İ.S.Stolyarcuk cinsi-rol tərbiyəsi aspektindən işləmişdir;

b) Gender tarazlığı prinsipi gender tərbiyəsində əsas götürülən baza prinsiplərindən biridir. Bu prinsipə görə təhsil müəssisələrindəki pedaqoji tərkibdə qadın və kişilərin sayı bərabər olmalıdır ki, onlar öz gender davranışları ilə uşaqlarda gender davranışının nümunəsini formalaşdıra bilsinlər. Bu sahədə müəllimin şəxsi nümunəsi güclü rola malikdir.

Tələbələrə gender bərabərliyinin aşılanması zamanı aşağıdakı metodlardan istifadə etmək olar: 1) dialoq metodu; konkret gender situasiyalarının analizi və gender problemlərinin qrup halında disskusiya yolu ilə təhlili; 2) oyun metodları (gender oyunları); 3) pedaqoji dəstək; 4) seçim vəziyyətinin yaradılması metodu.

1. Konkret gender situasiyalarının analizi şüurlu fəaliyyətin, rassional düşüncənin və ətraf mühitə uyğunlaşmanın inkişafına istiqamətlənmiş metoddur. E.N.Kamenskayaya görə, bu öyrənənlərin aktiv düşünmə qabiliyyətlərini və gender tapşırıqlarının təhlil edilməsi qabiliyyətini inkişaf

etdirir və gender təcrübəsinin toplanmasına şərait yaradır [1]. Gender situasiyalarının özü də problemli situasiya, qiymətləndirmə situasiyası, illüstrasiya situasiyasına bölünür.

2. Gender oyunlarının həyata keçirilməsi ilə onun iştirakçılarında həyatda gender rolları və gender identikliyinin müəyyən edilməsi təcrübə-oyun vasitəsilə həyata keçirilir.Oyun prosesində gender psixodramından istifadə iştirakçılarda emosionallığı artırır, onların özlərini sosial cəhətdən tam şəxsiyyət kimi dərk etmələrinə şərait yaradır.

3. Gender tərbiyəsində pedaqoji dəstək iştirakçıların şəxsi potensialını gender aspektindən açmaqla bərabər, pedaqoqun bu sahədə çətinliklə qarşılaşan uşağa bu çətinliyi dəf etməkdə yardım etməsinə şərait yaradır.

4. Seçim situasiyasının yaradılması metodu oğlan və qızlara öz seçiminə görə məsuliyyət daşımağı, müstəqilliyi öyrədir. Bu zaman müəllim özü müəyyən etməlidir ki, dərsin hansı mərhələsində seçim situasiyasından istifadə məqsədəuyğun və effektli ola bilər.

**«Gender bərabərliyi dəyərlərinin tərbiyə edilməsi müasir sosial-pedaqoji prosesin yeni modeli kimi»** adlı ikinci fəslin ***«Azərbaycan təhsilindəki problemlərə gender yanaşması və onların həlli yolları»*** adlı birinci yarımfəslində göstərilir ki, müasir dövrün prioritet məsələlərindən olan Azərbaycan qadınlarının cəmiyyətdə gedən sosial-siyasi proseslərdə iştirakının zəruri olması təhsil sistemində gender bərabərliyinə nail olmağı vacib vəzifə kimi qarşıya qoyur. Gender probleminin təhsil və tərbiyə sisteminə gətirilməsi cəmiyyətin vacib siyasi, sosial-iqtisadi və mədəni məqsədlərinə daha tez və uğurla nail olmasına yardım edir.

Azərbaycanda təhsil sistemini tənzimləyən hüquqi-normativ sənədlərə 2006-cı ildə Gender qanunu da əlavə edildi. Belə ki, Azərbaycan Respublikasının Konstitusiyası, «Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu» və «Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında Azərbaycan Respublikasının Qanunu» hər bir vətəndaşın cinsindən asılı olmayaraq təhsil almaq hüququna malik olmasını qanunvericiliklə təsbit edir. Təhsildə gender bərabərliyinin təsbit olunması 2006-cı ildə qəbul edilmiş Gender Qanununda da öz əksini tapmışdır.

Bu gün gender baxımından qadın təhsilindəki problemlərin araşdırılmasında cəmiyyətdə mövcud olan gender stereotipləri özünü bu istiqa-

---

[1] Каменская А.Н. Гендерный подход в педагогике. Дисс... док. пед. наук. Ростов-на-Дону, 2006, 341 с.

mətdə göstərir: regionlarda qızlar aşağı siniflərdə maneəsiz təhsil alırlar, ancaq onların yuxarı siniflərdə oxuması müəyyən qadağalar və çətinliklərlə müşayət olunur. Eyni zamanda orta məktəblərdə kişi müəllimlərin az olması və ya heç olmaması təhsil sistemində gender problemini yaradan əsas amillərdən biri kimi qəbul olunmalıdır.

Qadın təhsilinin və qadınların cəmiyyət daxilində zəif mövqe tutmalarının səbəbləri içərisində qadının vəzifələrini ancaq ailə daxilindəki funksiyaları ilə məhdudlaşdıran stereotiplər əsas yerlərdən birini tutur.Burada qadınla bağlı milli mentalitetimizdə mövcud olan fikirlərin əsaslı rolunu danmaq olmaz. Qadın ali təhsilli olsa belə onun vəzifəsi ilk növbədə evinin xanımı olması və ərə gedəndən sonra özünü ailəsinə və ərinə həsr etməsi ilə məhdudlaşır.

***«Pedaqoji təmayüllü ali məktəblərdə pedaqoji prosesin gender aspektləri»*** adlanan ikinci yarımfəsildə qeyd edilir ki, gender probleminə toxunarkən müəllimin və tərbiyəçinin özünün gender mədəniyyətinə nə dərəcədə malik olması məsələsinə xüsusilə fikir vermək lazımdır. Cünki, müəllim özü gender mədəniyyətinin həm daşıyıcısı, həm də ötürücüsü olmalıdır. Bu problemin həllində bəzi xoşagəlməz məqamların olmaması üçün pedaqoqların ixtisasının artırılması və yenidən hazırlanması üzrə kurslarda gender probleminə həsr edilmiş mövzuların da salınması vacibdir.

Gender probleminin tədrisi cəmiyyət daxilində qadın hüquqlarının kişi hüquqlarından üstün tutulmasına hesablanmamalıdır. Burada əsas məqsəd hər bir gəncin özünə qiymət verməyi bacaran vətəndaş kimi yetişməsi olmalıdır.

Bu fəsildə gender təhsilinin Azərbaycanda inkişafı və onun təkmilləşdirilməsi məqsədilə aşağıdakı vəzifələrin həyata keçirilməsi belə təsnifatlandırılmışdır:gender tədqiqatlarının əsas istiqamətlərini müəyyən etmək;dərsliklərin gender ekspertizasını keçirmək;pedaqoji kadrların hazırlanması və təkmilləşdirilməsində gender komponentini tətbiq etmək;alı təhsil müəssisələrinin pedaqoji kadrları üçün gender problemini özündə əks etdirən daimi seminar və treninqlər təşkil etmək;gender mövzularında buraxılış işləri və magistr dissertasiyaları yazmaq; ali təhsil müəssisələri üçün «Gender nəzəriyyəsi» dərsliyini hazırlamaq;beynəlxalq təcrübəni nəzərə almaqla respublikanın təhsil müəssisələrində Gender Araşdırmaları Mərkəzi, kafedraların açılmasına nail olmaq;genderlə bağlı elmi-praktik konfrans, elmi sessiya və dəyirmi masalar keçirmək.

Ali məktəblərdə təlim-tərbiyə prosesində demokratiya və humanizm şəraitinin yaradılması müəllim-tələbə münasibətlərinin gender baxımından tənzimlənməsini tələb edir.

Pedaqoji təmayüllü ali məktəblərdə gender bərabərliyinin həyata keçirilməsi üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi məqsədəuyğundur: ali məktəb müəssisələrinin proqramlarının korreksiya edilməsi;ali təhsil müəssisələri üçün kadr hazırlığı sisteminə xüsusi kadrların və genderlə bağlı kursların daxil edilməsi;gender stereotiplərinin dəf edilməsi istiqamətində gender aspektindən balanslaşdırılmış proqram və dərsliklərin işlənilməsi;elmi-metodik bazanın yaradılması.

Gender baxımından dərsdə istifadə edilən forma və metodların, verilən tapşırıqların seçilməsində müəllim üçün zərurudir:

- qrupun gender tərkibinin nəzərə alınması: əgər cinslərdən birinin sayı digərinə nisbətən çoxdursa, belə şəraitdə gender xüsusiyyətləri özünü çox gec biruzə verir;

- cinslərin psixofizioloji xarakteristikasının, hafizə, qavrama, riyazi və nitq qabiliyyətlərinin,hisslərin,utancaqlığın,maraqların, özünənəzarətin, daxili motivasiyanın, ünsiyyət üslubunun nəzərə alınması;

- hər bir tələbənin fərdi gender səviyyəsi nəzərə alınmaqla onun gender baxımından inkişafını stimullaşdırmaq məqsədilə ona öz qabiliyyətlərini, yaradıcı potensialını, gender unikallığını üzə çıxarmaqda yardım etmək.

Burada müəllimə verilən pedaqoji tələblərə gender bacarıqlarının daxil edilməsinin əhəmiyyəti geniş şərh edilir. A.N.Kamenskiyə görə «pedaqoqun gender bacarıqları üç istiqaməti özündə birləşdirir: pedaqoji fəaliyyətdə gender bacarıqları, pedaqoji ünsiyyətdə və şəxsi gender bacarıqları».[1]

Üçüncü yarımfəsil ***«Tələbələrdə gender bərabərliyi dəyərlərinin formalaşması dinamikasına milli mentalitetin təsiri»*** adlanır. Gender bərabərliyindən danışarkən bu anlayışın yaxın zamanlarda aktual problemi özündə əks etdirən problem kimi araşdırılması düzgün deyil və bu problemi çözmək üçün ayrı-ayrı tarixi dövrləri gender aspektindən təhlil etmək lazımdır. Bu gün milli mentalitetə, milli-mənəvi köklərə, adət və ənənələrə qayıdış haqqında cəmiyyət daxilində müəyyən mübahisələr gedir. Məlum

[1] Каменская А.Н. Гендерный подход в педагогике. Дисс... док. пед. наук. Ростов-на-Дону, 2006, 341 с.

məsələdir ki, hər bir xalqın inkişaf prosesi onun ənənələrinə, keçmişi özündə əks etdirən davranış qaydalarına, düşüncə tərzinə əsaslanmalıdır. Ancaq bir həqiqəti danmaq olmaz ki, bu gün azərbaycan cəmiyyəti və ailəsi daha çox qərb ənənələri istiqamətində müəyyən dəyişikliyə uğrayır və bu dəyişmə bizdən tərbiyə prosesində mütərəqqi ənənələrimizə istinad etməklə Qərb demokratiyası ilə Şərq kamilliyini üzvü şəkildə birləşdirməyi tələb edir.

Mütləq hesab olunan qadın və kişi davranış modelləri barədə standartlaşdırılmış təsəvvürləri özündə ehtiva edən gender stereotipləri gənc nəslin təlim-tərbiyəsinə mənfi təsir göstərməklə onun şəxsiyyət kimi formalaşmasına mane olur. Gənc nəsil patriarxal davranış nümunələrini və dünyagörüşünü orta ümümtəhsil məktəbi çərçivəsində mənimsəyib onu ali məktəb mərhələsində daha da möhkəmləndirir.

Bu fəslin ***«Tələbələrdə siyasi mədəniyyətin formalaşmasında gender bərabərliyi dəyərlərinin rolu»*** adlı yarımfəslində cinslərin hakimiyyətdə bərabər təmsil olunmasının sosial-siyasi tərəfləri geniş işıqlandırılmışdır və qeyd edilmişdir ki, tələbələrə gender bərabərliyinin aşılanması onlarda hakimiyyətdə cinslərin bərabər təmsili haqqında düzgün təsəvvürün formalaşmasına şərait yarada bilər. Bu sahədəki uğurlarla bərabər, mövcud olan nöqsanlar da tərbiyə prosesində diqqət mərkəzində saxlanılmalıdır. Qadını evin, ailə ocağının əsas qoruyucusu hesab edən bir çox Şərq ölkələri kimi, Azərbaycanda da qadınlar özləri hakimiyyət obyekti və daşıyıcısı kimi kişini görməyə üstünlük verirlər.

Tələbələrə belə sualla müraciət etdik: «Sizcə qadın vəzifə pilləsində yüksəlməlidir, yoxsa ev işlərilə məşğul olmalıdır? »




Diaq. 2.4.1. Qadının sosial vəziyyəti.

Respondentlərdən oğlan tələbələrin 47%-i və qızların 62%-i qadınların vəzifə pilləsində yüksəlməsini məqbul saymaqla bunu cəmiyyətin inkişafında müstəsna əhəmiyyətə malik amil kimi qiymətləndirmişlər. Sorğuda iştirak edənlərdən 31% qız və 28% oğlan qadınların daha çox ailə və ev təsərrüfatı ilə məşğul olmalarını vacib saymışlar. Qızlardan 7% və oğlanlardan isə 25% suala cavab verməkdə çətinlik çəkmişlər.

Qadının siyasi fəaliyyətdən uzaqlaşdırılması yalnız gender disbalansını pozan amil kimi yox, həm də qadına qarşı sosial ədalətsizlik kimi qiymətləndirilməlidir. Əgər qadının cəmiyyət üçün vətəndaşın doğulmasında, onun tərbiyə edilməsində əvəzsiz rolunu nəzərə alsaq, qadının ancaq kişilərin əmrini yerinə yetirən şəxs kimi qəbul olunması təmsil olunduğumuz cəmiyyətin sosial bəlalarından biri kimi qiymətləndirilə bilər.

Liderlikdə cinsi fərqlərin tələbələr tərəfindən necə qəbul edildiyini müəyyən etmək üçün onlara bu sualla müraciət etdik: «Sizcə kişi qadına nisbətən güclü liderdirmi?»

Sorğuda iştirak edənlərin 48%-nin qənaətinə görə kişilər qadınlara nisbətən daha güclü liderlik qabiliyyətinə malikdirlər və bunu siyasi fəaliyyətdə iştirak edən qadınların sayının azlığı ilə sübut etməyə çalışmışlar. Respondentlərin 32%-nin fikrinə görə liderlikdə cinsi fərqlər yox, kütləni, kollektivi arxasınca aparmaq və güclü liderlik qabiliyyətinə malik olmaq kimi xüsusiyyətlər əsas götürülməlidir. Onlar siyasi səhnədə lider kimi böyük rol oynamış qadınların adlarını çəkməklə liderlikdə əsas yeri peşəkarlığa və siyasi səbatlığa vermişlər.  20% isə cavab verməkdə cətinlik cəkmişdir.




Diaq. 2.4.2.Qadının siyasi liderliyi

Bu gün Azərbaycan sabitlik istiqamətində irəliləyir. Bu da gender problemlərinin iqtisadi və sosial proqramlardan ayrı həll edilməsinin qeyri-mümkünlüyünü bir daha sübut edir. Ancaq, başqa ölkələrdə olduğu kimi Azərbaycanda da davamlı inkişaf yolunda bir sıra maneələr vardır. Gender bərabərliyinin həllindəki lənglik, qadınların cəmiyyətin həyatında daha fəal mövqe tutmaq işinə cəlb edilməsi mexanizminin olmaması və s.problemlərin həlli tələb edir ki, həm orta, həm də ali təhsil sistemi insanların yeni nəsillərinin gender bərabərliyi əsasında tərbiyə olunmasının məsuliyyətini öz üzərinə götürsün. Bu zaman yerli milli ənənələrin, xüsusiyyətlərin, mentalitetin nəzərə alınması vacib şərtlərdən biri kimi qəbul olunmalıdır.

***«Tələbələrə gender bərabərliyi dəyərlərinin aşılanmasında dərsliklərin gender ekspertizasından keçirilməsinin əhəmiyyəti»*** adlanan beşinci yarımfəsildə qeyd edilir ki, gənclərə gender bərabərliyinin aşılanmasında təhsil kontekstinin də təsiri güclüdür və buraya aşağıdakılar daxildir:ali məktəblərin sosial struktur baxımından xüsusiyyətləri;ali məktəbin təşkilində gender normalarının yeniləşdirilməsi;dərsliklər və digər materiallar vasitəsilə gender normalarının aşılanması.

Dərsliklərin təhlili zamanı burada verilmiş mətnlərin həm kəmiyyət, həm də keyfiyyət təhlili zəruridir ki, bu zaman elmi ədəbiyyatda təsvir olunan gender stereotiplərinin təsnifatı, qadın və kişi obrazlarına müraciət tezliyinin hesablanması, mövzuların gender baxımından nəzərdən keçirilməsi diqqət mərkəzində saxlanılır.

Dərsliklərin gender ekspertizası zamanı ortaya çıxan problemlərdən biri, gender stereotiplərinin möhkəmləndirilməsində güclü rola malik olan «gizli tədris planının» (hidden curriculum) mövcud olmasıdır ki, bu da özünü gündəlik tədris –təlim prosesində biruzə verir.

Tədrisin məzmununun təhlili onu deməyə əsas verir ki, bu gün təhsil sistemində iki tədris planı fəaliyyət göstərir: biri dövlət tərəfindən rəsmi şəkildə təsdiq olunmuş tədris planı, digəri rəsmi xarakter daşımayan, ancaq təsir dairəsi güclü olan «gizli tədris planı». Gizli tədris planı – bu təhsil müəssisələrində fəaliyyət göstərən elə tədris planıdır ki, onun vasitəsilə həyata keçirilən təlim prosesi gender stereotiplərini özündə əks etdirməklə gender bərabərsizliyini müdafiə edir, kişi cinsinə üstünlük verməklə, qadın cinsini ikinci plana keçirir.

Gizli tədris planının daha çox dərsliklərin gender ekspertizası ilə bağlı ölçülərindən biri olan tədris edilən fənlərin məzmunu gender aspektindən bərabərsizliyin aşılanmasında güclü təsirə malikdir ki, burada da əsas yeri humanitar fənlər tutur. Məsələn pedaqoji universitetlərdə tədris

olunan tarix dərslikləri demək olar ki, «kişi tarixi» kimi tədris olunur və burada qadın adlarına çox az rast gəlinir.

Dərsliklərlə bağlı belə qeyri-adekvat münasibət bəzi çətinliklər yaradır. Belə ki, öyrənənlər hiss olunmadan belə nəticəyə gəlirlər ki, ancaq kişi başlanğıcı və kişilər cəmiyyətin iqtisadi, mədəni və sosial tərəqqisində, cəmiyyətin idarə olunmasında həlledici qüvvə kimi əsas rola malikdirlər.

Dərsliklərin gender təhlilində kontent təhlil metodundan istifadə edilmişdir ki, «bu da mətndə olan ümumi məlumatı say göstəricilərinə çevirmək, sonra isə onu statistik cəhətdən işləmək və təhlil etməkdir»[1].

Həm orta, həm də ali məktəb dərsliklərinin kontent təhlilindən belə nəticəyə gəlmək olar ki, bu gün ali təhsil sistemində mövcud olan gender disbalansının aradan qaldırılmasında dərsliklər çox böyük rola malikdir və onların gender ekspertizasından keçirilməsi günün tələblərindən biridir.

***«Gender bərabərliyi probleminin elmi-pedaqoji ədəbiyyatda qoyuluşu»*** adlı altıncı yarımfəsildə gender bərabərliyinin tələbələrə aşılanması zamanı genderlə birbaşa və ya dolayısı ilə bağlı olan ədəbiyyatın, dərsliklərin, dərs vəsaitlərinin öyrənilməsi və təhlili diqqət mərkəzində saxlanılmışdır. Problem baxımından mövcud ədəbiyyat qruplaşdırılaraq təhlil edilmişdir. Mövcud ədəbiyyatda gender probleminin tədqiqi onu deməyə əsas verir ki, bu məsələ heç də Azərbaycan elm məkanı üçün yeni deyil və bu problem müxtəlif elmlər fonunda araşdırılmışdır. Biz də mövcud ədəbiyyatın təhlilini tədqiqatımız üçün məqsədəuyğun saydıq. Genderlə bağlı həm Azərbaycan, həm də xarici elmi-metodik ədəbiyyat araşdırılmışdır. Bu barədə dissertasiyadan ətraflı məlumat almaq olar.

***«Ailə tələbələrə gender bərabərliyi dəyərlərinin aşılanmasında əsas sosial-mədəni mühit kimi»*** adlı yeddinci yarımfəsildə tələbələrin gender tərbiyəsində ailənin oynadığı müstəsna rol önə çəkilmiş, bu sahədə ailə institutunun əhəmiyyəti sosial-pedaqoji cəhətdən əsaslandırılmışdır.

Ailə üşaq üçün ilk tərbiyə məktəbidir. Ancaq bu ilk tərbiyə məktəbində uşağın dünyaya gəlişi ilə cəmiyyətdə mövcud olan gender stereotipləri özünü biruzə verir. Gender məsələsini bilmədən ailədaxili münasibətləri gender aspektindən düzgün təhlil edib onları məqsədəuyğun şəkildə qurmaq qeyri-mümkündür.

Gender bərabərliyinin ailədə aşılanması zamanı ailədaxili münasibətlərdən söz açarkən qadınlara qarşı mövcud olan mənəvi və fiziki zo-

---

[1]Məktəb dərsliklərinə gender baxışı. Bakı, 2007, s.46

rakılıqdan da danışmaq lazımdır. Bu gün qloballaşan dünyamızda ən çox zorakılığa məruz qalan məhz qadınlardır ki, onların hüquqları həm ailədə, həm də cəmiyyət daxilində pozulur. Təəssüf ki, bu halı bir sıra azərbaycan ailələrinə də şamil etmək olar. Hüquqlarının pozulması zamanı passiv mövqe tutması, milli adət-ənənə xatirinə hər şeyə dözməsi qadınlarımızın gender təhsilindən və tərbiyəsindən, ölkəmizdə qadınlara verilən hüquqlardan xəbərsiz olmasına dəlalət edir.

Qadınların son dövrdə ictimai həyatda gedən proseslərə daha fəal qoşulması onu göstərir ki, artıq qadına ənənəvi, yəni doqmatik prizmadan yanaşmaq düzgün deyil. İndi qadınlar ictimai həyatın mühüm sahələrinə getdikcə daha çox nüfuz etməklə ailə daxili çərçivədən çıxıb ictimailəşir. Qadının getdikcə ictimailəşməsi onun qarşısında bir sıra çətinliklərin çıxması ilə müşayət olunur.

Bu gün ailədə gender problemindən söhbət açarkən Qarabağ müharibəsinin, torpaqlarımızın 20%-nin erməni işğalçıları tərəfindən zəbt edilməsi nəticəsində bir milyondan çox qaçqını olan Azərbaycanda atanın şəhid olduğu, tərbiyəni ananın həyata keçirdiyi ailələrdə gender tarazlığının istər-istəməz pozulmasını diqqət mərkəzində saxlamaq vacibdir. Gender disbalansının pozulması nəticəsində hər iki cinsdən olan uşaqların gender identikliyində bir sıra problemlər özünü göstərir ki, bu da sosial-siyasi və iqtisadi amillərlə birbaşa bağlıdır. Ümumiyyətlə tarixində uzunmüddətli müharibə olmuş xalqlar üçün bu problem səciyyəvidir.

Beləliklə, deyə bilərik ki, gənc nəslə gender bərabərliyinin aşılanmasında ailə əvəzolunmaz tərbiyə məktəbidir və Azərbaycan ailəsinin yazılmamış, analoqu olmayan, bir çox xalqlar üçün nümunə ola biləcək qanunları gender baxımından əhəmiyyətli olduğundan saxlanılmalı, mürtəce çalarlı bəzi xüsusiyyətlər isə tərbiyə və islah yolu ilə aradan qaldırılmalıdır. Bu prosesdə tələsikliyə yol vermək sabit ailə münasibətlərinin məhvinə, ümumilikdə ailə institutunun dağılmasına gətirib çıxara bilər.

III Fəsil **«Azərbaycan cəmiyyətinin mədəni-tarixi inkişaf prosesində gender nəzəriyyəsinin təşəkkülü və inkişaf mərhələləri»** adlanır. Bu fəslin ***«Dünya dinlərində gender problemi ilə bağlı sosial-pedaqoji paralellərin sinergetikasının tələbələrdə gender dünyagörüşünün formalaşmasına təsiri”*** adlı yarımfəslində dünya dinlərində qadın-kişi bərabərliyinə münasibətin səciyyəsi elmi şəkildə şərh edilir. Bu gün Azərbaycanda bütün dinlərə tolerant münasibət bir çox nüfuzlu təşkilatlar tərəfindən cox gözəl örnək kimi qiymətləndirilir. Bu baxımdan gender bərabərliyinin tarixi təşəkkülündən danışarkən bu bərabərliyin dünya dinlərində necə əks

olunması, bu dinlərdə kişi və qadınlara verilən statuslar çox böyük maraq doğurur. Bəşər tarixinin əxlaqi cəhətdən formalaşmasında dinlərin necə böyük rol oynadığını nəzərə alsaq, onların gender baxımından irəli sürdükləri fikirlər də cəmiyyətdə gender bərabərliyinə olan mənfi münasibətlərin aradan qaldırılmasında böyük əhəmiyyətə malikdir.

Dünya dinlərinin sonuncusu olan İslam dininə əsaslanan İslam mədəniyyəti bəşər tarixində mütərəqqi bir dövrün başlanğıcını qoydu. O, qadın və kişilərin tam bərabər hüquqlu olduğunu elan edib bunu ictimai qanunlar əsasında təhlil etmiş yeni bir dindir. İslam bu günkü gender-sosioloji cins problemini, qadın hüquqlarını bəşəri hüquqların tərkib hissəsi olması aspektindən hələ erkən orta əsrlərdə tam həll etmişdir.

Ümumilikdə götürdükdə isə, dini baxışlarda insanların bərabərlik ideyası irəli sürülsə də həqiqətdə müasir dövrümüzdə qadınlar asılı vəziyyətdə olurlar. Onları bəzi hallarda dini iyerarxiyadan tamamilə sıxışdırıb çıxarırlar.

Xristianlıqda qadına və nikaha münasibətdə ikili standart onun yaradıcısı İsa peyğəmbərin yox, onun apostollarının adı ilə bağlıdır. Qadına, nikaha, cinslərin qarşılıqlı münasibətinə mənfi münasibət orta əsrlərdə uzun müddət davam etmişdir və bu dövrdə İsa peyğəmbərin qadına münasibətinə yox, onun apostollarının dediklərinə üstünlük verilmişdir.

Bu gün dünyada sitayiş edənlərin sayına və güclü nüfuzuna görə iki dini, xristianlıq və islam dinini pedaqoji cəhətdən təhlil etdikdə belə nəticəyə gələ bilərik ki, xristianlıqdan fərqli olaraq İslam qadına hüquq və vəzifələrə malik tam bir şəxsiyyət kimi baxır.

***«XIX əsrin sonu-XX əsrin əvvəllərində Azərbaycanda açılmış qız məktəblərinin gender assimetriyasına təsiri»*** yarımfəslində qeyd edilir ki,XIX əsrin ortaları- XX əsrin əvvəllərində Rusiyada və Avropada qadın azadlığı ilə bağlı baş verən hadisələr Şimali Azərbaycanda da öz əksini tapmışdır. XIX əsrin sonlarına doğru Avropada feminist qadın hərəkatlarının getdikcə güclənməsi Rusiyanın və onun işğalı altında olan xalqların qadın azadlığı hərəkatına öz güclü təsirini göstərməkdə idi. Qadın təhsilinin cəmiyyətin inkişafına aparan yolda əsas amil olmasını yaxşı başa düşən qabaqcıl fikirli insanlar hər vasitə ilə qadın təhsilini Azərbaycanda təbliğ edir və onun əldə edilməsinə çalışırdılar. Məhz bu təbliğat və mübarizə nəticəsində 1848-ci ildə Şuşada xüsusi qız məktəbi yaradıldı ki, onun da məqsədi qəbul edilmiş nizamnaməyə əsasən milliyyətindən və dinindən asılı olmayaraq qızlara ibtidai təhsil vermək idi. 1894-cü ildə bu məktəb Marinski qız məktəbinə çevrildi.

Qadın təhsilinin əhəmiyyətini dərindən dərk edən mütərəqqi fikirli insanlar bu nəticəyə gəlirdi ki, qızlar üçün ayrıca məktəblər açılmasa belə onları heç olmasa oğlan məktəblərinə çəlb etmək lazımdır. Belə bir mütərəqqi addımı atanlardan biri mütəfəkkir yazıçı C.Məmmədquluzadə olmuşdur.

Artıq XIX əsrin 90-cı illərindən etibarən Azərbaycanın bir sıra şəhərlərində oğlan məktəbləri yanında qız siniflərinin açılması təşəbbüsü yüksək vüsət aldı. Belə məktəblərdən Naxçıvanda M.T.Sidqinin, Nuxada Məmməd Əmin Şeyxzadənin təşkil etdikləri məktəbləri misal çəkmək olar.

Azərbaycanda qız məktəblərinin açılmasının qaçılmaz bir proses olduğunu başa düşən hökumət dairələrinin yetərincə olmasa belə qız məktəblərinin açılmasına icazə verməsi maarifçiləri yeni tipli və daha yüksək nüfuza malik qız məktəblərinin açılmasına ruhlandırırdı. Bu sahədə ilk təşəbbüs H.Zərdabiyə aid idi.

Azərbaycanda qadınların təhsil almalarının vacibliyini düşünən qabaqcıl fikirli adamlar çətin də olsa bunu həyata keçirtməyə səy göstərirdilər. Onlardan Azərbaycanın ən böyük sənayeçisi və xeyriyyəçisi, Azərbaycan milli burjuaziyasının görkəmli nümayəndəsi H.Z.Tağıyevin adı bu sırada şərəfli yer tutur. Belə ki, onun Bakıda ilk rus-müsəlman qadın məktəbini açması (1901) onun xeyriyyəçilik fəaliyyətinin ən yüksək zirvəsi sayıla bilər.

***«Azərbaycan Demokratik Respublikasının dövlət siyasətində gender probleminin həlli yollarının pedaqoji müstəvidə təhlili»*** adlanan yarımfəsildəAzərbaycan tarixinin milli dövlətçilik ənənələrinə öz dəsti-xətti ilə əbədi imzasını qoymuş Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı ilk gündən məktəb və maarif sahəsinə daha çox diqqət yönəltməklə milli istiqlala gedən yolun burdan başlanmasının vacibliyini milli dövlət məsələsi kimi qoyması bu fəsildə öz geniş əksini tapmışdır. Ümummilli lider Heydər Əliyev bu xüsusda demişdir: «1918-ci ildə yaranmış Azərbaycan Demokratik Cümhuriyyəti bizim milli sərvətimizdir, tariximizin parlaq səhifəsidir...» .

Həmişə qadın təhsilinə böyük diqqət vermiş milli hökumət qadınların kişilərlə bərabər təhsil almasına geniş imkanlar yaradaraq istər qadınlar üçün pedaqoji kurslarda, istərsə də qadın gimnaziyalarında azərbaycanlı qızların təhsili üçün hər cür şərait yaratdı. Maarif Nazirliyi qadın təhsili sahəsində həlli vacib olan bir sıra vəzifələrin həyata keçirilməsi işinə başladı.Təhsil sisteminin milliləşdirilməsi ilə əlaqədar Bakı Marinski Qadın gimnaziyası, Bakı Qadın Seminariyası, I, II, III Müqəddəs Nina Gimnaziyalarını milli qadın məktəbləri ilə əvəz etdi.

Azərbaycan Demokratik Respublikası dövründə təhsil sahəsində

həyata keçirilən bir sıra islahatlar bu sahədə qadın və kişi təhsili arasındakı fərqləri və ayrı-seçkiliyi aradan qaldırmağa yönəldilmişdi.

«*Postsovet dövründə gender probleminin həlli yollarının sosial-siyasi və pedaqoji xüsusiyyətləri*» adlı yarımfəsildə elmi şəkildə əsaslandırılır ki, Azərbaycanda qadın təhsilinin inkişaf xətti sovet dövrünün əvvəli üçün səciyyəvi idi və burada qadın hərəkatı bütün Şərq üçün bu sahədə örnək rolunu oynaya bilərdi. Bunun üçün respublika daxilində süni şəkildə də olsa müəyyən şərait yaradıldı ki, bu da qadınların təhsilə və istehsalata kütləvi şəkildə qoşulmalarına zəmin yaratdı. Doğrudan da azərbaycan qadınının bu dövrdəki fəaliyyəti maraqlı, təqdirəlayiq sayıla bilər. Bu yarımfəsildə postsovet dövrü ədəbiyyatının gender aspektindən əhəmiyyətli rolu geniş şərh edilməklə, bu dövrdə yaşamış və öz ədəbi fəaliyyətlərində qadınların cəmiyyətin sosial həyatında iştirakını vəsf edən şair və yazıçılarımızın əsərləri də gender aspektindən geniş təhlil edilmişdir. Belə ki, C.Cabbarlının, H.Cavidin, Y.B.Çəmənzəminlinin əsərləri gender baxımından maraqlı məqamlarla zəngindir.

Postsovet dövründə «qadın məsələsi»ni tez bir zamanda, süni şəkildə həll etməklə Qərbi qabaqlamağa çalışan kommunist ideologiyası qadının müxtəlif sosial rollarını birləşdirsə də onların həyata keçirilməsində keyfiyyəti nəzərə almırdı.

«*Azərbaycanda gender siyasətinin həyata keçirilməsi mexanizminin sosial-pedaqoji istiqamətləri*» yarımfəslində Azərbaycan Respublikasında gender bərabərliyinin hüquqi bazasının yaradılması və onun pedaqoji əhəmiyyəti elmi şəkildə əsaslandırılmışdır. Pedaqoji təmayüllü ali məktəb tələbələrinə gender bərabərliyinin aşılanması prosesində dövlətin gender siyasəti sosial-pedaqoji kontekstdə izah edilməli və bu sahədə qarşıda duran vəzifələr, maneələr aydın şəkildə izah edilməlidir. Bu zaman tələbələr genderi dövlət əhəmiyyətli proses kimi qavrayacaq, onun sosial tərəfləri ilə bərabər, siyasi istiqamətlərini də anlayacaqlar.

90-cı illərdən yenidən demokratik inkişaf yolunu tutan müstəqil Azərbaycanda cinslərin bərabərlik hüququ «Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında» 12 noyabr 1995-ci il tarixli Konstitusiya aktında da öz əksini tapmışdır. Azərbaycan Respublikasının Milli Məclisi 4 avqust, 1992-ci ildə BMT-nin «Qadınların siyasi hüquqları haqqında» Konvensiyasına qoşulmuşdur. 1994-cü ildən etibarən ictimai-siyasi vəziyyətin normallaşması ilə əlaqədar dövlət siyasətimizdə qadınlara münasibətdə yeni mərhələ başlandı.

Azərbaycanda gender siyasətinin həyata keçirilməsi ulu öndərimiz

Heydər Əliyevin adı ilə bağlıdır və bu siyasətin dövlət siyasətinin tərkib hissəsi kimi həyata keçirilməsi cəmiyyətdə gender problemlərinin həllindəki uğurlarla nəticələnmişdir. Belə ki, Azərbaycana XX əsrin 60-cı illərindən rəhbərlik etməyə başlayan Heydər Əliyev qadınların cəmiyyətin bütün sahələrində irəli çəkilməsini, təhsilli qadınların sayının artmasını, onların elmi sahədə kişilərlə bərabər, çiyin-çiyinə addımlamasını diqqət mərkəzində saxlamışdır. Xalqın təkidi ilə ikinci dəfə hakimiyyətə qayıdan ulu öndərimizin vətəndaş cəmiyyəti uğrunda gördüyü işlər müasir gender probleminin həlli sahəsində sosial-siyasi və iqtisadi baza yaratdı.1995-ci ildə Pekində keçirilmiş dördüncü Ümumdünya Pekin konfransından sonra qadınlara münasibətdə siyasətimiz yeni çalarlar qazandı. Bu konfransda 190 ölkənin nümayəndəsi iştirak edirdi. Pekin konfransına hazırlıq məqsədilə1994-cü ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin fərmanı ilə Milli Hazırlıq Komitəsi yaradılmışdır. Pekin konfransının qərarı respublikamızda qadınların vəziyyətinin yaxşılaşdırılması üçün baza mexanizmlərinin möhkəmlənməsinə güclü təkan verməklə bərabər, həm də cinslərarası bərabərliyə nail olmağın yeni yollarının axtarılması zərurətini ortaya çıxardı. Pekin konfransından sonra dövlətlər qarşısında qoyulan sosial, iqtisadi və siyasi həyatda qadınların rolunu artırmaq tələbi daha da gücləndi. Azərbaycan prezidentinin fərmanı ilə Qadın məsələləri üzrə Dövlət Komitəsi yaradıldı.

14 yanvar 1998-ci ildə Ümummilli lider Heydər Əliyev «Azərbaycanda qadınların rolunun artırılmasına dair tədbirlər haqqında» Sərəncam verdi. 6 mart 2000-ci ildə Ümummilli lider tərəfindən «Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında» Fərman imzalanmışdır. Ulu Öndər tərəfindən əsası qoyulan gender siyasətini ölkədə uğurla davam etdirən prezident İlham Əliyev tərəfindən 6 fevral 2006-cı ildə imzalanmış fərman əsasında Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsi yaradılmışdır.

Prezident İlham Əliyevin digər böyük əhəmiyyətli Fərmanı isə 10 mart 2006-cı ildə imzaladığı «Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında Azərbaycan Respublikasının Qanunu»dur.

Bu yarımfəsildə ölkəmizdə gender siyasətinin həyata keçirilməsi sahəsində mövcud olan və gender siyasətinin tam uğur qazanmasına maneə törədən bir sıra subyektiv səbəblər verilmişdir. İctimaiyyətin həyatında qadınların fəal iştirakına olunan təzyiqlər və qadına bu istiqamətdə olan ögey münasibət sosial mühitdə mövcud olan ənənəvi patriarxal normalardan qaynaqlanır.

**«Təlim prosesində və auditoriyadankənar tədbirlərdə tələbələrə gender bərabərliyi dəyərlərinin aşılanması»** adlı dördüncü fəsildə ali məktəblərdə tədris olunan «Pedaqogika tarixi», «Xalq pedaqogikası», «Azərbaycanda məktəb və pedaqoji fikir tarixi», «Azərbaycan tarixi» və «Azərbaycan Respublikası Konstitusiyasının və hüququnun əsasları» fənlərinin problem baxımından imkanları müəyyənləşdirilmişdir.

Tədqiqatlar göstərir ki, gənclərin gender tərbiyəsində humanitar fənlərin rolu xüsusilə böyükdür. Bu fənlərin tədrisində tədris proqramına daxil edilmiş hər bir movzunun gender baxımından imkanları nəzərə alınmalı və onlardan məqsədyönlü şəkildə istifadə olunmalıdır.

***«Pedaqogika tarixi» fənninin problem baxımından imkanları*** yarımfəslində antik dövr mütəfəkkirlərindən Sokratın (b.e.ə.470-399), Platonun (b.e.ə.428-347), Aristotelin (b.e.ə.384-322), Plutarxın (45-127), Pifaqorun (b.e.ə.580-500), Fukididin (e.ə.460-e.ə.395), Solonun (e.ə.638-e.ə.558) əsərlərində cinslərin qarşılıqlı münasibəti, qadının o dövrdəki cəmiyyətdə mövqeyi haqqında geniş məlumat verilməklə yanaşı, gender münasibətlərinin bu və ya digər xüsusiyyətləri təsvir edilmişdir. Eyni zamanda, onlar qadının sosial mövqeyini cəmiyyətin sosial münasibətlərinin inkişaf səviyyəsi ilə əlaqələndirmişlər. Tədqiqatçı R.Mirzəzadə yazır: «Qədim yunan filosoflarının rassionallıq – irrasionallıq, ziddiyyətli və məntiqli yanaşmaları insanlığı – kişiliyi və qadınlığı izah etməkdə elmdə gender sahəsi üçün geniş mənbə, zəngin materialdır».[1]

Antik dövr filosoflarının ideyalarının gender prizmasından təhlili onu deməyə əsas verir ki, bu ideyalar gender fəlsəfəsinin və gender tərbiyəsinin məhək daşı hesab edilməlidir.

Orta əsrlərdə kilsənin və cəmiyyətin qadın hüquqlarına qısqanclıqla baxmasına rəğmən, qadınların təhsil və tərbiyə prosesindəki rolunu görməmək olmazdı. Qızların oğlanlardan ayrı təhsil alması təhsil müəssisələrinə qadın müəllimlərin cəlb edilməsini zəruri edirdi və bunu təhsil sahəsində irəliyə atılan addım kimi qiymətləndirmək olar. Məhz bu zərurət üzündən qadın müəllimlərin universitetlərdə işləməsinə icazə verildi.

Tələbələrin diqqətini orta əsrlərdə İntibah dövründə Qərbi Avropada təhsilin dinamikasına yönəldərkən müəllim qeyd etməlidir ki, XI əsrdən başlayaraq, şəhərlərin sayının artması ilə təhsil mərkəzlərinin sayı da artdı

---

[1] Mirzəzadə R. Gender:cəmiyyət, insan hüququ,siyasə t(tarixi,fəjsəfi və siyasi –hüquqi istiqamətlər). Bakı:Adiloğlu, 2003, s.129

və ancaq təhsildəki gender fərqləri kişilərin xeyrinə dəyişdi. Bu dövrün tərbiyə və təhsil sistemi ilə tələbələri tanış edən müəllim həmin dövrdə qadın təhsilinə olan 3 yanaşma ilə onları tanış etməlidir:

-1-ci yanaşmanın tərəfdarları prinsipcə qadın təhsili ideyasını kökündən rədd edirdilər və bunu həmin dövrə aid sənədlərdən də görmək olar. Bu sənədlərin bir çoxunda təhsilin qadın tərbiyəsinə mənfi təsiri xüsusilə vurğulanır. Məsələn, XII əsrdə Filipp Navarski «İnsanın dörd yaş dövrü» traktatında qadın təhsilini xeyirxahlıq və müdriklik baxımından ən zərərli amil hesab edirdi. Ona görə, «oxumağı bacaran qadınlarla həmişə müxtəlif macəralar baş verir»;

-2-ci yanaşma müəyyən məhdudiyyət qoyulmuş qadın təhsilinin vacibliyini nəzərdə tuturdu ki, burada da əsas yeri dini təhsil tuturdu. Bu təhsilin əsas məqsədi dünya həzzindən uzaq müti, ərə sadiq, başıaşağı qadınların tərbiyə edilməsi idi;

-3-cü, qadın təhsilini kişilərə verilən təhsil ilə bərabər tutan yanaşma cəmiyyət tərəfindən birmənalı qarşılanmırdı. Belə ki, bu yanaşma zahirən humanist xarakterdə olsa da, əslində yenə də qadının ancaq dini missiyasını özündə ehtiva edirdi. Belə ki, bu yanaşmanın tərəfdarlarından Pyer Dyubua özünün « Müqəddəs torpaqların alınması» (1306-1307) əsərində qeyd edirdi ki, yeni zəbt edilmiş torpaqlarda kilsə missionerlərinin hazırlanmasında qadınların da iştirakına xüsusi fikir verilməli, xristianlığın dünyada yayılmasında qadınlar yaxından iştirak etməlidirlər.

Beləliklə də Qərbi Avropada mədəniyyətin formalaşması dövründə qadın və kişi təhsili arasındakı əsaslı fərqlərin getdikcə dərinləşməsi və ənənəyə çevrilməsi prosesi gücləndi.

Orta əsrin pedaqoji ideyalarını geniş izah edən müəllim, sonda gəldiyi nəticələr ilə tələbələri tanış etməlidir:

- bu dövrdə qadın təhsili özünün ən aşağı səviyyəsi ilə xarakterik olmasına baxmayaraq, XI-XII əsrlərdə kişi təhsili ilk orta əsr universitetlərinin yaranması ilə yüksək mərhələyə çatdı. Bu dövrə aid mənbələrə görə, yüksək təhsilə malik qadınlara az da olsa rast gəlinməsinə baxmayaraq, Qərbi Avropada yaşayan və bütün sosial təbəqədən olan qadınların əsas hissəsi savadsız idi;

- fəlsəfə və dində gender qütbləşməsi ənənələri özünü qadın və kişi təhsilində göstərirdi. Belə ki, orta əsrlərdə də antik dövrlərdə olduğu kimi, qadın və kişi təhsilinin qarşısında duran məqsəd və vəzifələr bir-birinə zidd idi. Oğlanları cəmiyyətdə fəal iştiraka, dövlət və kilsə vəzifələrinə, peşəkar fəaliyyətə (həkim, müəllim, vəkil, keşiş, din alimi və s), cəmiyyətdə və

təbiətdə baş verənlərin mənimsənilməsinə və dərk edilməsinə hazırlayırdılar. Qadın təhsilinin qarşısında isə cəmiyyətin ictimai və sosial həyatından tamamilə təcrid olunmuş, müti, allah qəzəbindən qorxan, utancaq, şəxsi maraqlardan məhrum, əməksevər, ailəcanlı qadın yetişdirmək vəzifəsi qoyulurdu;

- qadın təbiətinin qeyri-müəyyənliyinə, "günahkarlığına", mənəvi keyfiyyətlərinə görə kişidən aşağı səviyyədə olmasına əsaslanan dini doqmatizm cəmiyyətin qadına olan münasibətinə güclü təsir göstərirdi;
- qadını nəsil artımında kişinin köməkçisi və xidmətçisi kimi qəbul edən dünyagörüşə görə, qızlara verilən təhsil ancaq əl işlərinə və təsərrüfatın idarə edilməsi bacarıqlarının qazanılmasına xidmət etməlidir.

Sivilizasiyanın sürətli inkişafı ilə xarakterik olan tarixin yeni dövrünün pedaqoji ideyalarını şərh edən müəllim bu ideyaları həm də gender istiqamətində təhlil etməlidir. Belə ki, Avropanın vətəndaş cəmiyyəti ilə bağlı humanist baxışları, kilsə tərəfindən müdafiə olunan qadına qarşı dəyişməz sxolastik yanaşmalarla güclü təzad yaradırdı. Bu təzadı görən mütərəqqi fikirli insanlar qadına münasibətdə humanistliyə, bərabərliyə tam olmasa da, əvvəlki illərə nisbətdə daha tez-tez toxunurdular.

Bu fəsildə elmi pedaqogikanın banisi Y.A.Komenskinin, maarifçilərdən F.Fenelonun, J.J.Russonun, K.A.Helvetsinin, J.A.Kondorsenin, Avropada qadın hüquqlarının müdafiəçilərindən olan O.de Qujun, klassik feminizmin əsasını qoymuş M.Uollstounkraftın cinslərin sosial bərabərliyi haqqındakı fikirləri öz geniş əksini tapmışdır.

IV fəslin ***«Xalq pedaqogikası" fənninin problem baxımından imkanları»*** adlı yarımfəslində gənc nəslin gender bərabərliyi ruhunda tərbiyə edilməsində Şərq tərbiyə sisteminin dəyərlərinin, xalq pedaqogikasının çox dəyərli mənbə rolunu oynaması elmi şəkildə əsaslandırılır. Şərq tərbiyə sisteminin dəyərləri, əxlaqi fikirləri gender bərabərliyinə dair zəngin material verir, şifahi xalq ədəbiyyatı nümunələri (atalar sözləri və məsəllər, bayatılar, nağıllar, dastanlar və s.), «Avesta», «Kitabi – Dədə Qorqud», «Oğuznamə», «Qabusnamə» gender tərbiyəsində ən qiymətli və zəngin mənbədir.

Gender tərbiyəsinin obyekti geniş olduğundan, mövzunun tam açıqlanması üçün xalqımızın tərbiyəvi əhəmiyyətə malik ilkin mənbələrində olan gender bərabərliyi ilə bağlı fikirlər araşdırılmışdır. Bu araşdırmalar gender tərbiyəsinin aparılmasında hansı üsul və vasitələrdən istifadə edilməsinin vacibliyinin üzə çıxarılmasına kömək edə bilər. Bu məqsədlə bütövlükdə hər iki cinsə müxtəlif zaman kəsiklərində münasibətin müəllim tərəfindən şərh edilməsi məqsədəuyğundur. Mədəni tarixi mənbələri

araşdırıb təhlil etməklə hər iki cinsin cəmiyyət daxilində ilkin mövcudluğunu, vəziyyətlərini, onların qarşılıqlı münasibətlərinin tarixi inkişafını öyrənmək pedaqogikanın genderlə bağlı istiqamətlərinin işıqlandırılmasına yardımçı olar. Fənni tədris edən müəllim, gender bərabərliyi baxımından mövcud ədəbiyyatı araşdıran zaman bir məsələni vurğulamalıdır ki, Azərbaycan xalqının şifahi xalq ədəbiyyatı gender stereotiplərilə zəngindir. Məhz xalqın məfkurəsinə söykənən xalq pedaqogikasını gender tərbiyəsi baxımından zəngin mənbə hesab etmək olar.

Xalqımızın etnopedaqoji fikirlərinin tədqiqi onu deməyə əsas verir ki, Azərbaycan xalqının qadına münasibətindəki hörmət və ehtiram digər xalqlardan öz qədimliyinə görə bizi fərqləndirir.

***«Azərbaycanda məktəb və pedaqoji fikir tarixi» fənninin problem baxımından imkanları»*** yarımfəslində göstərilir ki, orta əsrlər dövründə yaşamış Azərbaycan mütəfəkkirlərinin qadın azadlığı və cinslərin sosial bərabərliyi haqqında söylədikləri müdrik fikirləri onlardan sonra gələn nəsilləri bu problem üzərində ciddi düşünməyə sövq edir. Belə ki, bu problemin həll edilməməsi zamanından asılı olmayaraq bütün dövrlərin ictimai mühit bəlasına çevrilmiş, cəmiyyətin ümumu inkişafına mane olmuşdur.

Orta əsrlərdə yaşamış Əbu Nəsr Məhəmməd Fərabi, İbn Rüşt, Bəhmənyar, Əbu Əli ibn Sina, Nizami Gəncəvi, Məhsəti Gəncəvi, Əfzələddin Xaqani, Nəsirəddin Tusi, Sədi Şirazi, Hafiz Şirazi, Məhəmməd Füzuli və bu kimi digər dahilərin ədəbi irsini pedaqoji aspektdə izah edən müəllim, tələbələrin nəzərinə çatdırmalıdır ki, bu mütəfəkkirlər öz əsərlərində qadın-kişi münasibətlərinin təsvirinə müəyyən yer verməklə bərabər, eyni zamanda onların bir çoxu öz dövrlərində «əlçatmaz» olan qadın azadlığı məsələsini təbliğ və təqdir etmişlər. Ancaq dərin elmi və ədəbi araşdırmalar apardıqda məlum olur ki, bir çox mütəfəkkirlərin qadın azadlığı haqqındakı fikirləri haçalanır.

Bu yarımfəsildə XIX əsrin sonu-XX əsrin əvvəllərində yaşamış Azərbaycan maarifçilərinin qadın azadlığına, cinslərarası sosial bərabərliyə, qadın təhsilinə olan münasibətləri öz geniş əksini tapmışdır.

Maarifçilər haqlı olaraq qeyd edirdilər ki, qadının iştirak etmədiyi cəmiyyət «təkayaqlı adama» bənzəyir. Maarifçilərin ədəbi-pedaqoji irsini təhlil edən müəllim qeyd etməlidir ki, onlar qadının kişi ilə bərabər hüquqlara malik olmasını tərbiyə və tərəqqi işinin zəruri amillərindən biri kimi qəbul etmişdirlər.

Qadına kölə münasibət ilə heç zaman barışmayan, bəşəriyyətin tərəqqisini qadına verilən azadlıq və hüquqlarla bağlayan maarifçilərdən

M.F.Axundov, C.Məmmədquluzadə, N.Nərimanov, R.Əfəndiyev, H.Zərdabi, F.Köçərli, M.T.Sidqi, M.M.Nəvvab, M.Şahtaxttinski, N.Vəzirov, Ü.Hacıbəyov, M.Ə.Sabir və b. öz əsərlərinin əsas ana xətti kimi məhz bu problemi götürürdülər. Adları çəkilən bu mütəfəkkirlərin ədəbi irsinin pedaqoji təhlili zamanı gender aspektinin də tələbələrə çatdırılması əsas vəzifələrdən biri kimi götürülməlidir.

Azərbaycan maarifçiləri vətəndaş cəmiyyətinin yaradılmasında və vətəndaşlıq tərbiyəsində qadın azadlığına nail olmağı, qız məktəbləri açmaqla oxumuş analar və tərbiyəçilər yetişdirməyi, cəmiyyət daxilində ictimai dəyişikliklərə məhz maariflənmə yolu ilə nail olmağı, insanlara cinsindən asılı olmayaraq hüquq və vəzifələrini anlatmağı günün ən vacib məsələsi sayırdılar.

***«Azərbaycan tarixi» fənninin problem baxımından imkanları*** adlı yarımfəsildə göstərilir ki, cəmiyyətin iqtisadi, mədəni və siyasi proseslərini özündə əks etdirən tarix dərsliklərinə bu gün nəzər salsaq görərik ki, tarixdə kişilərin rolları daha qabarıq verilmiş, bununla qadınların dünya sivilizasiyası tarixinə real olaraq verdikləri töhfələr, onların bəşər tarixinin inkişafında oynadıqları rolları getdikcə yaddan çıxarılır.

Qadın azadlığı ənənələri bəşər tarixinin ayrılmaz, ancaq yetərincə məlum olmayan və bu gün də tədqiqinə ehtiyac duyulan hissəsidir. Müasir dövrdə tarixi hadisələrə gender baxımından yanaşılması tarixdə kişilərin daha böyük rola malik olması haqqındakı stereotipləri laxlatdı, tarixi hadisələrin gender süzgəcindən keçirilməsi zərurətini ortaya qoydu. Tarix fənlərinin tədrisində hadisə və nəticələrin gender prizmasından yenidən nəzərdən keçirilməsi yeni nəsildə hər iki cinsi əhatə edən tarix haqqında təsəvvürlərin formalaşmasına imkan yarada bilər.

***«Azərbaycan Respublikası Konstitusiyasının və hüququnun əsasları» fənninin problem baxımından imkanları*** yarımfəslində qeyd edilir ki, pedaqoji təmayüllü ali məktəblərdə tədris olunan «Azərbaycan Respublikası Konstitusiyasının və hüququnun əsasları» fənninin müəyyən mövzularının tədrisi zamanı gender bərabərliyinin aşılanması üçün əlverişli imkan yaranır və bu fənni tədris edən hər bir müəllim bütün müddəalara gender baxımından yanaşmalı, onları bu cəhətdən düzgün izah etməlidir. O təlimdə qarşıya qoyulan məqsədə çatmaq üçün tələbələrə ölkəmizdə prezident İlham Əliyev tərəfindən 10 oktyabr 2006-cı ildə imzalanmış, 21 maddədən ibarət olan «Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında Azərbaycan Resbublikasının Qanunu» haqqında geniş məlumat verməlidir.

Bu fəslin *«Auditoriyadankənar vaxtlarda tələbələrə gender bərabərliyi dəyərlərinin aşılanması»* adlı yarımfəslində tələbələrə gender bərabərliyi dəyərlərinin aşılanmasında auditoriyadankənar tədbirlərin əhəmiyyəti, onların problem baxımından imkan və yolları üzərində dayanılır. Belə ki, pedaqoji təmayüllü ali məktəblərdə genderşünaslığa aid xüsusi fənn bloku hələ ki, olmadığından cəmiyyətin demokratik dəyərlər istiqamətində inkişafına öz səmərəsini verən bu elmi istiqamət haqqında tələbələrə məlumatların çatdırılması və onlara gender bərabərliyinin aşılanmasında auditoriyadankənar tədbirlər xüsusi əhəmiyyət kəsb edir. Gender üzrə səmərəli təşkil olunan, dərsdən fərqli olaraq könüllülük prinsipinə əsaslanan, ali məktəbin təlim-tərbiyə fəaliyyətinin çox mühüm elementi sayılan auditoriyadankənar tədbirlər tələbələrin bu istiqamətdə biliklərini dərinləşdirər və dünyagörüşünü inkişaf etdirər.

Gənclərin gender tərbiyəsinə mənfi təsir göstərən gender stereotiplərinin təsir imkanları *«Tələbələrə gender bərabərliyi dəyərlərinin aşılanması üzrə təcrübi-eksperimental iş»* adlı yarımfəsildə eksperiment nəticəsində öyrənilmişdir. Müasir dövrdə gənc nəslin gender tərbiyəsində nəzərə alınması vacib olan amillər içərisində gender stereotipləri gender tərbiyəsinin səmərəliliyinə birbaşa təsir gəstərir və cəmiyyətdə mövcud olan stereotiplər içərisində güclü psixoloji-sosioloji və pedaqoji təsir gücünə malik olan bu stereotiplər qadın və kişilərin həyatda özlərini necə aparmalı olduqlarına dair cəmiyyətdə tərtib edilmiş, ümumiləşdirilmiş təsəvvürlərdir.

Tədqiqatımız zamanı belə nəticəyə gəldik ki, gender stereotiplərinin təsir gücünü üç səviyyəyə bölmək olar:

1. Yüksək səviyyə-bu səviyyədə gender davranışındakı patriarxal model, feminlik-maskulinlikdəki stereotiplər güclüdür və bu qadın-kişi əmək bölgüsündə, ailə daxili vəzifələrin bölgüsündə özünü göstərir.

2. Orta səviyyə- gender təsəvvürləri qarışıq modelə əsaslanır, belə ki, burada patriarxal model ilə eqalitar modelin xüsusiyyətləri birləşir.

3. Aşağı səviyyə-gender davranışı və dünyagörüşü eqalitar modelə əsaslanır.

Tələbələrə təlim prosesində gender bərabərliyinin aşılanmasında, onların gender rollarını düzgün dərk etməsində stereotiplər, demək olar ki, başlıca maneə hesab edilir. Belə ki, ali məktəbə qədəm qoyan tələbə gənc bu stereotipləri hələ ailədə ikən qazanır və onun həyatının sonrakı dövründə onlar daha da möhkəmlənir. Xüsusilə bölgələrdən iri şəhərlərə təhsil almağa gələn gənclərdə sərt gender stereotiplərinin formalaşdığını görmək olar. Bunların həmin gənclərin gələcək həyatlarına, cəmiyyətdə və ailədəki möv-

qeyinə güclü təsirini nəzərə alaraq, müasir dövrdə gender tərbiyəsinin səmərəliliyini artırmaq məqsədilə biz pedaqoji təmayüllü ali məktəb tələbələri arasında gender məzmunlu müxtəlif sorğular keçirtdik. Sorğu 400 nəfər tələbə arasında keçirildi və Azərbaycan Müəllimlər İnstitutunda və onun Salyan, Zaqatala filiallarında, Azərbaycan Dövlət Pedaqoji Universitetində üç mərhələdə (müəyyənedici, öyrədici və yoxlayıcı) aparılmışdır.

Eksperimentin ilkin mərhələsində humanitar fənlər üzrə mühazirə və seminarlar dinlənilmiş, qeydlər götürülmüş, genderlə bağlı keçirilmiş auditoriyadankənar tədbirlər müşahidə edilmiş, professor-müəllim heyəti, tələbə kontingenti, ali məktəblərin rəhbər orqanları nümayəndələri – prorektorlar, dekanlar, filialların direktor müavinləri, tələbə şuraları üzvləri ilə söhbətlər aparılmışdır.

Mühazirə və seminar məşğələlərinin müşahidəsinin, anket sorğularının, tələbələrlə müsahibənin təhlili gender istiqamətində aparılan işlərdə səriştəsiziyin, gender maarifləndirilməsinin aşağı olmasının, bu sahədə nəzərə çarpacaq nöqsanların olduğunu göstərmişdir.

Belə nəticəyə gəlinmişdir ki, işdəki biganəliyin, səriştəsizliyin aradan qaldırılması və gender bərabərliyinin aşılanmasında pedaqoji kollektivə kömək nöqsanların düzəldilməsinə şərait yaradar, onlarda gender mədəniyyətini inkişaf etdirər.

Eksperimentin müəyyənedici mərhələsinin yekunları eksperimentin öyrədici mərhələsinə keçməyə, eksperimental və kontrol qrupların müəyyənləşdirilməsinə imkan vermişdir. Eksperimentə cəlb edilmiş akademik qruplarda mühazirə və seminar məşğələləri aparan müəllim heyəti və akademik qrupların kuratorları təklif olunan metodika ilə tanış edilmiş, kontrol qrup müəllimlərinə isə xəbər verilmişdir ki, onların qruplara tədqiqatda kontrol qrup kimi müəyyənləşdirilmişdir. Doktorantı maraqlandıran başlıca məsələ tələbələrə gender bərabərliyinin aşılanması üzrə işin nəzəri və praktik əsaslarına aydınlıq gətirməkdir.

Mühazirə və seminar məşğələlərində, auditoriyadankənar tədbirlərdə tələbələrə gender bərabərliyinin aşılanması üzrə işin lazımi səviyyədə təşkil edilməsi məqsədilə keçiləcək tədbirlərin mövzusunun, formasının seçilməsində, tədbirlərin təşkilində ali məktəblərin həm pedaqoji kollektivinə, həm də ictimai təşkilatlarına lazımi kömək göstərilmiş, tövsiyə olunmuşdur ki, genderlə bağlı auditoriyadankənar tədbirlərin keçirilməsində tələbələrin maraqlarının, arzu və istəklərinin nəzərə alınması, oğlan və qızların sayında gender tarazlığının saxlanılması, tədbirin onlara tərbiyəvi təsiri diqqət mərkəzində saxlanılmalıdır.

Eksperiment zamanı kontrol və eksperimental qrupların göstəricilərinin müqayisəsi aparıldı. Nəticələrin hansı dərəcədə səmərəli olduğunu müəyyənləşdirmək üçün müşahidə, müsahibə, sorğu, anketləşdirmə, təhlil və tərkib, riyazi-statistik metodlardan istifadə edildi.

Keçirdiyimiz sorğunun əsas məqsədi gender stereotiplərinin gənclərin öz gələcəkləri, yəni öz şəxsi həyatları, peşələri və gələcəkdə quracaqları ailəyə aid planlarına (Mən özüm, peşəm, ev və ailəm) təsirini öyrənmək idi.

Sorğuya cəlb olunanların yaş səviyyəsi ilə bağlı olaraq, onların gələcəkləri haqqındakı təsəvvürlərinin inkişaf dinamikasının öyrənilməsi məqsəd kimi qoyulmuşdur (mən özüm, peşəm, ev və ailəm). Bu məqsədlə tələbələrə öz gələcək planları haqqında inşa yazmaq, verilmiş sorğu anketini doldurmaq və 5-7 nəfərlik kiçik qruplarda müzakirələr aparmaq tapşırılmışdır. Təhlildən belə nəticə alındı: 1-peşə, 2-mən, 3-ev, ailə

**Eksperimental və kontrol qrup tələbələrilə aparılmış ilkin yoxlamaların nəticələri**

Cədvəl 4.7.1

| | Kurs | | Tələbə sayı | Qadın | | | Tələbə sayı | Kişi | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | 1 | 2 | 3 | | 1 | 2 | 3 |
| Azərbaycan Müəllimlər İnstitutu | Eksperiment | II | 40 | 12<br>30% | 8<br>20,4% | 20<br>49,6% | 30 | 22<br>74% | 7<br>24% | 1<br>2% |
| | | III | 30 | 10<br>32% | 9<br>30% | 11<br>38% | 30 | 20<br>68% | 8<br>28% | 2<br>4% |
| | | IV | 29 | 13<br>45% | 9<br>32% | 7<br>25% | 29 | 19<br>66% | 7<br>26% | 3<br>8% |
| Azərbaycan Dövlət Pedaqoji Universiteti | Kontrol | II | 32 | 16<br>51% | 6<br>18% | 10<br>31% | 30 | 22<br>75% | 6<br>22% | 2<br>3% |
| | | III | 40 | 17<br>42% | 10<br>26% | 13<br>32% | 30 | 21<br>71% | 8<br>25% | 1<br>4% |
| | | IV | 50 | 20<br>40% | 15<br>31% | 15<br>29% | 30 | 21<br>70% | 6<br>19% | 3<br>11% |

### Eksperimental və kontrol qrup tələbəlarilə aparılmış yekun yoxlamaların nəticələri

Cədvəl 4.7.2

| | Kurs | | Tələbə Sayı | Qadın | | | Tələbə Sayı | Kişi | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | 1 | 2 | 3 | | 1 | 2 | 3 |
| Azərbaycan Müəllimlər İnstitutu | Eksperiment | II | 40 | 22 55% | 6 15% | 12 30% | 30 | 22 74% | 6 21% | 2 5% |
| | | III | 30 | 14 48% | 4 12% | 12 40% | 30 | 19 64% | 6 23% | 5 13% |
| | | IV | 29 | 12 40% | 6 25% | 11 35% | 29 | 19 65% | 6 21% | 5 14% |
| Azərbaycan Dövlət Pedaqoji Universiteti | Kontrol | II | 32 | 10 31% | 6 18% | 16 51% | 30 | 22 75% | 6 22% | 2 3% |
| | | III | 40 | 16 42% | 10 26% | 12 32% | 30 | 21 71% | 7 25% | 2 4% |
| | | IV | 50 | 20 40% | 15 31% | 14 29% | 30 | 20 68% | 8 28% | 2 4% |

Tələbələrin peşə, ailə və özü haqqındakı gələcək planlarına gender stereotiplərinin təsirini müəyyənləşdirmək, bu istiqamətdə genderə aid söhbətlərin, dəyirmi masaların, disputların keçirilməsi və humanitar fənlərin gender aspektindən imkanlarından istifadəyə əsasən bu stereotiplərin aradan qaldırılması məqsədilə sistemli iş aparılmışdır. Həm təlim prosesində, həm də auditoriyadankənar tədbirlər zamanı gender stereotiplərinin gender bərabərliyində əsas maneə kimi qiymətləndirilməsi və onun aradan qaldırılmasının pedaqoji əhəmiyyəti mühüm amil kimi nəzərdən keçirilmiş, nəticədə eksperimental qruplarda vəziyyət müəyyən qədər dəyişmişdir.

Azərbaycan Müəllimlər İnstitutunda və onun filiallarında (eksperimental qruplarda) 99 nəfər qızdan 48-i, 89 nəfər oğlandan 60 nəfər peşə ilə bağlı gələcək planlarına daha çox yer vermişlər. Ailə ilə bağlı planlara 35 nəfər qız, 12 nəfər oğlan yer vermişdirlər. Azərbaycan Dövlət Pedaqoji Universitetində (kontrol qruplarda) 122 nəfər qızdan 52-si, 90 nəfər oğlandan isə 63 nəfər peşəyə üstünlük vermişlər. Gələcək planlarında ailəyə qızlardan 35, oğlanlardan isə 6 nəfər yer vermişlər.

Eksperimentin nəticəsi göstərir ki, Azərbaycan Müəllimlər İnstitutunda eksperimentdən əvvəl 35,6% qız öz gələcək planlarında peşəyə yer vermişdirsə, eksperimentdən sonra bu rəqəm 47,6%-ə qalxmışdır. Kantrol sinifdə isə peşə ilə bağlı qızlardan əvvəl 44,3% -i müsbət cavab vermişdir-

lərsə, eksperimentdən sonra bu rəqəm 37,6%-ə enmişdir ki, peşəyə üstünlük verən qızların sayında 6,7% azalma müşahidə edilib və ailəyə üstünlük verən qızların sayında isə 7% artım olmuşdur. Eksperimental qruplarda peşə ilə bağlı qızların cavablarında 12% artım olduğu halda, kontrol qruplarda bu rəqəm cəmi 6,7% təşkil etmişdir.

Eksperiment göstərdi ki, tələbələrlə müntəzəm olaraq gender tərbiyəsinin aparılması onlarda gender sosiallaşmasında əsas sahə olan peşəyə marağı artırmış olar və xüsusilə qızların gələcək planlarında peşəyə üstünlük vermələri gender baxımından aktuallığını həmişə saxlayır.

Nəticəyə görə, tələbə qızlar öz gələcək planlarında ailəyə də müəyyən qədər üstünlük vermiş, IV kursda təhsil alan qızlar isə peşə seçiminə daha çox yer ayırmışlar. Hər üç kursda öz şəxsi keyfiyyətlərinin inkişafına maraq orta səviyyədən bir qədər aşağı olmuşdur.

Oğlanlarda ilk gənclik dövründə daha çox peşə sahəsi ilə bağlı planlar əsas yeri tutsa da, yaş həddi artdıqca onların öz şəxsi keyfiyyətlərinə maraq da artmışdır.

Tələbələrin gender tərbiyəsinə təsir göstərən ən güclü vasitə təhsil və təlimdir. Eyni zamanda tələbələrin özlərinin də təhsildə mövcud olan gender stereotiplərinə münasibəti problem baxımından əhəmiyyətlidir. Bu stereotipləri müəyyənləşdirmək üçün tədqiqatın 1-ci mərhələsində təhsildə cinsi fərqlərlə bağlı I-II-III kurslar arasında sual qoyuldu: «Azərbaycan ailəsində ali təhsillə bağlı kimə üstünlük verilməlidir?».

Tədqiqatdan alınan nəticəyə görə bu gün oğlanların ali təhsil məsələsinin prioritet məsələyə çevrilməsi ailə daxilində hələ də patriarxal qayda-qanunların qalması ilə bağlıdır və burada oğlan respondentlərin bu sahədə özlərinə üstünlük vermələri təbiidir. Maraqlı cəhət odur ki, qızların cavablarında da onlar oğlanların ali təhsil almalarını önə çəkirlər bu da onlarda gender stereotiplərinin güclü olması ilə bağlıdır.

2 mərhələ: Bu mərhələdə sorğuya cəlb olunanların təhsildə cinslərin iştirakı haqqındakı fikirlərinə gender tərbiyəsinin təsirinin üzə çıxarılması əsas məqsəd kimi qoyuldu. Bu məqsədə çatmaq üçün eksperimental və kontrol qruplar seçildi və eksperimental qruplarda semestr ərzində müxtəlif gender oyunları ilə bərabər, genderə dair mühazirələr oxundu, pedaqogika, psixologiya, ədəbiyyat və tarix fənlərinin tədrisində bu məsələyə geniş yer verildi. Yoxlama müddətinin sonunda keçirilən sorğu nəticəsində aşağıdakı nəticələr əldə edildi:

Eksperimentdən belə nəticəyə gəlindi ki, tələbələr arasında genderə dair biliklərin təbliği onlarda təhsildə cinslərin bərabərhüquqluluğu haq-

qında fikirlərin möhkəmlənməsinə səbəb oldu. Bunu tələbələrin qoyulmuş problemlə bağlı yazdıqları inşalardan da aydın görmək olar: «Azərbaycan ailəsində təhsilalmada övladlar arasında ayrı-seçkiliyə bu gün də rast gəlinir və bu məndə dərin təəssüf hissi yaradır. Çünki bəzi valideynlər hələ də dərk etmirlər ki, gələcəkdə qurulacaq ailələrin təməlinin möhkəm olması hər iki tərəfin, həm atanın, həm də ananın təhsil səviyyəsindən asılıdır. Eyni zamanda burada doğulacaq uşaqların tərbiyəlilik səviyyəsində də bu amil güclü rola malikdir. Hətta mən deyərdim ki, qızların təhsilinə daha ciddi fikir vermək lazımdır, çünki cəmiyyətdə qadının savadlılığı, təhsili və peşə hazırlığı hər bir dövlətin nailiyyəti, hər bir xalqın milli sərvəti və üstün intellektual göstəricisidir. Bu mənada görkəmli fransız şairi və ictimai xadimi Lamartinin bu sözləri yerinə düşər: « Kitabı qadın oxumuşsa, deməli, onu bütün ailə, bütün xalq oxumuşdur» (Mehralıyeva Arzu, Azərbaycan Müəllimlər İnstitutu, III kurs tələbəsi).

Oğlan və qızlar, eyni zamanda tədqiqatda iştirak edən müəllimlər də bu gün cəmiyyətdə və eləcə də təhsil sahəsində mövcud olan gender stereotiplərini dərk etməklə bərabər, onların yaranmasında hansı amillərin rolu olduğunu elmi şəkildə mənimsədilər.

**Eksperimental və kontrol qrup tələbələri ilə aparılmış ilkin yoxlama nəticələri**

Cədvəl 4.7.3

| | Kurslar | | Tələbə sayı | Cavablar | | |
|---|---|---|---|---|---|---|
| | | | | Oğlan | Qız | Hər ikisi |
| Azərbaycan Müəllimlər İnstitutu | Eksperimental | II | 70 | 21<br>30% | 21<br>30% | 28<br>40% |
| | | III | 60 | 19<br>32% | 8<br>12% | 33<br>56% |
| | | IV | 58 | 13<br>22,4% | 9<br>15% | 36<br>62,6% |
| Azərbaycan Dövlət Pedaqoji Universiteti | Kontrol | II | 62 | 28<br>45% | 14<br>23% | 20<br>32% |
| | | III | 70 | 19<br>26,5% | 27<br>39% | 24<br>34,5% |
| | | IV | 80 | 29<br>36% | 34<br>43% | 17<br>21% |

**Eksperimental və kontrol qrup tələbələri ilə aparılmış yekun yoxlama nəticələri**

Cədvəl 4.7.4.

| | Kurslar | | Tələbə Sayı | Cavablar | | |
|---|---|---|---|---|---|---|
| | | | | Oğlan | Qız | Hər ikisi |
| Azərbaycan Müəllimlər İnstitutu | Eksperiment | II | 70 | 13<br>19% | 10<br>14% | 47<br>67% |
| | | III | 60 | 14<br>23,4% | 11<br>18% | 35<br>58,6% |
| | | IV | 58 | 10<br>17,9% | 8<br>13% | 40<br>69,1% |
| Azərbaycan Dövlət Pedaqoji Universiteti | Kontrol | II | 62 | 28<br>45% | 16<br>25% | 18<br>30% |
| | | III | 70 | 20<br>28% | 19<br>27% | 31<br>45% |
| | | IV | 80 | 28<br>34% | 32<br>41% | 20<br>25% |

Azərbaycan Müəllimlər İnstitutunda eksperimental qruplarda (II,III,IV kurslar) cinslərarası münasibətlərdə gender mədəniyyətinin yaradılması və təhsildə cinslərin bərabərliyinə dair sistemli iş aparılmış, təhsildə gender bərabərliyi cəmiyyətin demokratik dəyərlərinin və gender mədəniyyətinin yaradılmasının mühüm şərti kimi nəzərdən keçirilmiş, nəticədə eksperimental qruplarda vəziyyət nəzərə carpacaq dərəcədə artmışdır. Təhsildə oğlan və qızların iştirakına tələbələrin münasibətini müəyyənləşdirmək məqsədilə verilən suallara eksperimental qruplarda 188 nəfərdən 122 nəfər təhsildə hər iki cinsin bərabər iştirakını, 37 nəfər oğlanlara, 29 nəfər isə qızlara üstünlük verilməsini düzgün hesab etmişlər. Kontrol qruplarda (Azərbaycan Dövlət Pedaqoji Universiteti) 212 tələbədən 69 nəfər təhsildə hər iki cinsin bərabər iştirakını, 76 nəfər oğlanlara, 67 nəfər isə qızlara üstünlük verilməsini doğru hesab etmişlər.

Eksperimentin nəticələri göstərir ki, Azərbaycan Müəllimlər İnstitutunda təhsildə cinslərin bərabərliyinə dair verilən suallara eksperimentdən əvvəl 52,8% müsbət cavab verilmişdirsə, eksperimentdən sonra bu rəqəm 64,9%-ə qalxmışdır. Kontrol qrupda müvafiq rəqəmlər 29,1%-dən 33,3%-ə

yüksəlmişdir. Eksperimental qruplarda artım 12,1% olduğu halda, kontrol qruplarda fərq cəmi 4,2% olmuşdur.

Eksperiment göstərdi ki, tələbələrlə cinslərin sosial bərabərliyi, gender mədəniyyəti haqqında müntəzəm aparılan söhbətlər və keçilən fənlərin bu baxımdan imkanlarından istifadə onlarda təhsilə aid gender stereotiplərinin aradan qaldırılmasına ciddi təsir göstərir və onlarda qarşı cinsə münasibətdə tolerantlığın yaradılmasına şərait yaradır.

Eksperimentdən belə nəticəyə gəlindi ki:

1. Eksperimentə cəlb edilmiş bütün yaş qruplarından olan qadın cinsinə mənsub gənclərin peşə sferasına marağı artdı.

2. Oğlan və qızlar, eyni zamanda tədqiqatda iştirak edən müəllimlər öz fərdi gender xüsusiyyətləri ilə bərabər, əks cinsin də gender xüsusiyyətlərini daha yaxşı dərk etməyə başladılar. İştirak edənlərdə qarşı cinsə münasibətdəki stereotiplərin səviyyəsi aşağı düşdü və həm müəllimlər, həm də tələbələrdə belə bir fikir formalaşdı ki, həm təlimdə, həm də tərbiyə prosesində gender yanaşması vacibdir və onun reallaşdırılmasından hər iki tərəf daha çox faydalana bilər.

3. Cinslərarası münasibətdə mənəvi mədəniyyətin səviyyəsi yüksəldi. Beləliklə apardığımız tədqiqatdan belə nəticəyə gəldik ki, məqsədyönlü, sistemli və fasiləsiz iş öz səmərəsini göstərdi. Tələbələrə genderə aid elmi biliklərin sistemli şəkildə verilməsi, gender bərabərliyinin tərbiyə edilməsi sayəsində müasir tələblərə cavab verən yeni nəticələr əldə edildi.

Eksperiment nəticələri göstərdi ki, təlim və tərbiyə prosesində müntəzəm olaraq gender tərbiyəsinə və təliminə geniş yer verilməsi hər iki cinsdən olan tələbələr arasında gender mədəniyyətinin yaranmasına, gender stereotiplərinin aradan qaldırılmasına şərait yaradır.

Tədqiqatla bağlı alınan **nəticələr** aşağıdakı kimi qruplaşdırılmışdır:

1. Gender elmi istiqaməti cins problemlərinin kompleks həllində (xüsusilə də qadın problemlərinin) fəlsəfə, sosiologiya, hüquq, differensial psixologiya, sosial psixologiya, tarix, kulturalogiya, psixofiziologiya, pedaqogika mövqeyindən irəli gələn sahələrarası analizə əsaslanmalıdır.

2. Azərbaycanda təhsilin gender aspektləri və xüsusilə də pedaqoji kadr hazırlığı sahəsində gender yanaşması hələ kifayət qədər öyrənilməmiş və tədqiq edilməmiş sahə sayıla bilər. Müəllim hazırlığında gender baxımından müəyyən təzadlar bu sahədə fəaliyyətə öz mənfi təsirini göstərir.

3. Cəmiyyətin sosial quruluşunun əsas ölçülərindən biri olan gender müasir dövrlə bağlı olaraq, sosial sistemin nizamlanmasında əsaslı rola malik olan vacib dəyər kimi qiymətləndirilə bilər. Gender həm cinslərin

bir birinə, həm də cəmiyyətin cinslərin sosial rollarına münasibətində və şəxsi, ictimai əhəmiyyətə malik sosial dəyərdir.

4. Tələbələrə gender bərabərliyi dəyərlərinin aşılanmasında gender identikliyi psixoloji-sosial aspektdən diqqət mərkəzində saxlanılmalıdır və bu sahədə gender strategiyası, onun aşağıdakı müddəalarının əsas götürülməsi məqsədəuyğundur: Ali məktəbdəki gender şəraitini öyrənmək, təhlil etmək; Problemin həll edilməsi üçün lazım olan variantların işlənməsi; Gender problemi ilə bağlı layihələrin həyata keçirilməsi və dinamikasına aid monitorinqin keçirilməsi; Layihəyə aid tövsiyələr vermək və nəticə.

5. Gender təhsilinin Azərbaycanda inkişafı və onun təkmilləşdirilməsi məqsədilə aşağıdakı vəzifələrin həyata keçirilməsi məqsədəuyğundur: gender tədqiqatlarının əsas istiqamətlərini müəyyən etmək; həm orta, həm də ali məktəb dərsliklərinin gender ekspertizasını keçirmək; pedaqoji kadrların hazırlanması və təkmilləşdirilməsində gender komponentini tətbiq etmək; ali təhsil müəssisələrinin pedaqoji kadrları üçün gender problemini özündə əks etdirən daimi seminar və treninqlər təşkil etmək; gender mövzularında buraxılış işləri və magistr dissertasiyaları yazmaq.

6. Tələbələrə gender dəyərlərinin aşılanması zamanı bölgələrdə gender bərabərliyi ilə bağlı mövcud olan təsəvvürlərə tolerant yanaşmaqla bu sahədəki gərginliyin azaldılmasına nail olmaq olar.

7. Gender bərabərliyi dəyərlərinin aşılanması zamanı Azərbaycan ailəsinə məxsus ailədaxili münasibətlər və milli mentaliteti nəzərə almaq zəruridir.

8. Tələbələrə gender bərabərliyi dəyərlərinin aşılanması zamanı Azərbaycan tarixində qadın-kişi bərabərliyinin tarixən lap qədim dövrlərdən mövcud olmasının çatdırılması vacibdir.

9. Şərqlə Qərbin qovşağında yerləşən Azərbaycan tarixən müxtəlif millətlərə və etiqadlara münasibətdə həmişə tolerant münasibəti saxlamışdır. Xristianlıq və islam dinini pedaqoji cəhətdən təhlil etdikdə tələbələr belə nəticəyə gələ bilərlər ki, xristianlıqdan fərqli olaraq İslam qadına hüquq və vəzifələrə malik tam bir şəxsiyyət kimi baxır.

10. Azərbaycan qadınlara müasir dünya standartlarına cavab verə biləcək və bir çox ölkələr üçün nümunə ola biləcək siyasi, iqtisadi və mədəni hüquqların verildiyi ilk müsəlman ölkəsidir.

11. Cəmiyyətin sosial həyatında iştirak səviyyəsinə görə Azərbaycan və Avropa qadınları arasında ciddi fərqlər özünü göstərir ki, bu da onların bu sahədə tarixən qazandıqları sosial təcrübə ilə bağlıdır.

12. Humanitar fənlərin tədrisində genderə müasir dünyagörüş baxımından aktual problem kimi yanaşılmalı və gender problemi xüsusu və ümumiləşdirilmiş pedaqoji analiz nəticəsində öyrənilməlidir.

13. Qızların və oğlanların gender istiqamətində inkişafına təsir göstərən əsas neqativ amillərdən biri məktəblərdə feminliyin artmasıdır. Belə ki, burada kişi modelinin olmaması, pedaqoji kadr kontingentində qadınların çoxluq təşkil etməsi təhsil sistemində gender disbalansına səbəb olur.

14. Pedaqoji kadr hazırlığında gender aspektinin nəzərə alınması vacib amillərdən biridir.

15. Gender elmi istiqamətinin pedaqoji tərəflərini dərindən öyrənmək üçün bu sahədə aparılan elmi tədqiqatların genişləndirilməsi məqsədəuyğundur.

16. Genderlə bağlı biliklər məcburu deyil, maarifləndirmə xarakteri daşımalı, uşaq və gənclərə öyrədilməlidir. Bunun üçün həm ümumtəhsil müəssisələrində, həm də ali təhsil ocaqlarında xüsusu proqramlar olmalıdır.

17. Gənclərin gender dəyərlərini daha yaxşı qavraması üçün təhsil sahəsində gender məlumatlarının əsas ötürücüsü olan dərsliklərin gender ekspertizasından keçirilməsi vacibdir və buna dövlət tərəfindən nəzarət gücləndirilməlidir.

18. Tələbələri bu gün ölkəmizdə aparılan gender siyasətinin həm sosial, həm siyasi, həm pedaqoji, həm də iqtisadi tərəfləri ilə yaxından tanış etməklə onlara gender probleminin dövlət tərəfindən əsas demokratik dəyər kimi qəbul edilməsini sosial stabilliyin əsas amillərindən biri kimi qiymətləndirmələrinə yardım etmiş olarıq.

19. Azərbaycanda gender elmi istiqamətinin inkişaf dinamikası və bu sahədə yazılan elmi-metodik ədəbiyyat, dərs vəsaitlərinin az olması gender maarifləndirilməsinə mənfi təsir göstərən amildir.

20. Gender biliyini və ümumbəşəri dəyərlərdən olan gender mədəniyyətini əhaliyə çatdırmaq üçün KİV müstəsna rola malik olmalıdır.

21. Müasir dövrdə gənc nəslə gender bərabərliyi dəyərlərinin aşılanmasında nəzərə alınması vacib olan amillər içərisində gender stereotipləri gender tərbiyəsinin səmərəliliyinə birbaşa təsir göstərir və cəmiyyətdə mövcud olan stereotiplər içərisində güclü psixoloji-sosioloji və pedaqoji təsir gücünə malikdir.

Tədqiqatın nəticələrinə əsasən aşağıdakı **təkliflərin** nəzərə alınmasını vacib hesab edirik:

- pedaqoji təmayüllü ali məktəblərdə gender nəzəriyyəsi ilə bağlı seçmə fənlərin tədrisi tələbələrdə gender mədəniyyətinin formalaşmasına münbit şərait yaradar;

- pedaqoji təmayüllü ali məktəblərdə gender mövzusunda elmi-tədqiqat işlərinin genişləndirilməsi arzu olunandır.

İddiaçı dissertasiyanın məzmununu, əsas elmi ideyalarını və alınan nəticələri özündə əks etdirən aşağıdakı **əsərlərin** çapına nail olmuşdur:

1. XX əsrin sonu-XX əsrin əvvəllərində Azərbaycan qadınlarının maarifçilik və qadın hərəkatında rolu // Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu, Elmi əsərlər, 2007, № 4, s.200-204
2. İslamda gender aspektlərinin bəzi məsələləri // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, 2007, № 6, s. 338-343
3. Azərbaycanda gender siyasətinin əsas istiqamətləri və reallıqlar // Odlar Yurdu Universitetinin elmi və pedaqoji xəbərləri, 2008, № 23, s.160-163
4. C.Cabbarlının əsərlərində gender probleminin bəzi məsələləri // Odlar Yurdu Universitetinin elmi və pedaqoji xəbərləri, 2008, №26, s.145-147
5. Azərbaycan Respublikası konstitusiyasının tədrisində gender qanunundan istifadənin əhəmiyyəti. Azərbaycan Müəllimlər İnstitutunun Xəbərləri, 2008, № 3, s.18-22
6. Orta əsr mütəfəkkirlərinin əsərlərində gender bərabərliyinə sosial-pedaqoji münasibət // Pedaqoji Universitet Xəbərləri, 2009, №6, s.343-348
7. Gənc nəslin gender bərabərliyi ruhunda tərbiyə edilməsində Azərbaycan şifahi xalq ədəbiyyatından istifadənin imkanları // Azərbaycan Müəllimlər İnstitutunun Xəbərləri, 2009, №2, s.22-28
8. Qədim Yunanıstan və Qədim Romada qadın təhsili və təliminin gender aspektindən təhlili // Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu, Elmi əsərlər, 2009, № 3-4, s.142-145
9. Социально-педагогическая значимость саблюдения национального менталитета в процессе привития молодому поколению гендерного равенства в Азербайджане // Наука и жизнь Казахстана. Международный научно-популярный журнал, 2009, №3, с.168-172
10. Təlim prosesində şagirdlərin gender tərbiyəsinin imkan və vasitələri( metodik tövsiyə). Bakı: «Müəllim», 2009, 44 s.
11. Azərbaycan xalq pedaqogikasında gender bərabərliyinə münasibət. Metodik vəsait. Bakı:ADPU, 2010, 26s.
12. «Dövlətin gender siyasəti» seçmə fənninin (sosial-pedaqoji aspektdə) proqramı (bakalavr pilləsi üçün). Bakı: Müəllim, 2010, 13 s.

13. Təhsil və tərbiyə prosesində gender probleminin nəzərə alınmasının zəruriliyi / Ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 87-ci ildönümünə həsr olunmuş gənc tədqiqatçıların ümumrespublika elmi konfransı, Bakı, Qafqaz Universiteti, 06-07may 2010-cu il, s.309-311

14. Azərbaycan maarifçilərinin pedaqoji ideyalarında gender bərabərliyi tərbiyəsinin əsas istiqamətləri // Pedaqoji Universitet Xəbərləri, 2012, № 4, s.259-263

15. Azərbaycan Demokratik Respublikasının maarif islahatlarında gender bərabərliyinin yeri və rolu // Odlar Yurdu Universitetinin elmi və pedaqoji Xəbərləri, 2012, № 33, s.147-150

16. Azərbaycan Xalq Cümhuriyyətinin həyata kecirdiyi gender siyasətinin pedaqoji əhəmiyyəti // Bakı Slavyan Universiteteinin elmi Xəbərləri, 2012, № 1, s.189-194

17. «Kitabi-Dədə Qorqud» dastanındakı pedaqoji ideyaların gender aspektindən təhlili // Azərbaycan Müəllimlər İnstitununun Xəbərləri, 2012, № 1, s. 59-63

18. Gender bərabərliyinin aşılanmasında gender mədəniyyətinin yeri və rolu // Pedaqoji Universitet Xəbərləri, 2013, №3, s.407-411

19. Azərbaycan təhsilindəki gender problemlərinin həlli yolları. Azərbaycan Müəllimlər İnstitununun Xəbərləri, 2013, №1, s.32-36

20. C.Məmmədquluzadənin pedaqoji və publisistik fəaliyyətində gender probleminə münasibət // Azərbaycan Müəllimlər İnstitununun Xəbərləri, 2013, № 2-3, s.33-37

21. Dərsliklərin gender ekspertizasının pedaqoji əhəmiyyəti // Azərbaycan Müəllimlər İnstitununun Xəbərləri, 2013, №4, s.28-32

22. Postsovet dövrünün gender mənzərəsində H.Cavidin pedaqoji ideyalarının rolu / «Hüseyn Cavid yaradıcılığı çağdaş təfəkkür işığında (Hüseyn Cavid-130)» mövzusunda Beynəlxalq elmi konfransın materialları. Bakı, 22-24 oktyabr, 2012, s.297-301

23. «Kitabi-Dədə Qorqud» dastanlarında və «Qabusnamə»də gender bərabərliyi tərbiyəsinin bəzi məsələləri. «Təhsil sistemində gənc nəslin təlim-tərbiyəsi üzrə işin təşkili və onun yaxşılaşdırılması istiqamətləri» mövzusunda respublika elmi konfransının materialları. Bakı, 28 iyun, 2012, s.167-169

24. Ümummilli lider H.Ə.Əliyevin dövlət siyasətində gender probleminin həlli yolları və onların sosial-pedaqoji əhəmiyyəti. «Azərbaycanşünaslığın aktual problemləri» Ümummilli lider Heydər Əliyevin 90 illik

yubileyinə həsr olunmuş IV beynəlxalq konfransın materialları. Bakı, 01-04 may, 2013, s.427-429

25. Gender bərabərliyinin aşılanmasında ali məktəb müəlliminin rolu və vəzifələri. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 90-cı ildönümünə həsr olunmuş «Müəllim hazırlama siyasəti və problemləri» beynəlxalq simpoziumu. Bakı, 3-4 may, 2013, s.18-20

26. Gender tərbiyəsi: tarixi, nəzəriyyəsi və müasir problemləri. Monoqrafiya. Bakı: Elm və təhsil, 2013, 268 s.

27. Ali məktəb dərsliklərinin gender aspektindən təhlili // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, 2014, № 1, s.264-269

28. Xristianlıq və buddizmdə qadınla bağlı fikirlərin gender aspektindən təhlilinin sosial-pedaqoji tərəfləri // Pedaqoji Universitet Xəbərləri, 2014, №1, s.335-339

29. Gender bərabərliyinin aşılanmasında Məhsəti Gəncəvinin ədəbi irsindən istifadənin pedaqoji əhəmiyyəti // Odlar Yurdu Universitetinin elmi və pedaqoji Xəbərləri, 2014, №39, s.183-188

30. Tələbələrin gender tərbiyəsində amazonkalar haqqında tarixi məlumatlardan istifadənin imkanları // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, 2014, №2, s.332-337

31. N.Nərimanovun və M.Ə.Sabirin əsərlərində gender bərabərsizliyinin sosial-pedaqoji kontekstdə təhlili. Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu, Elmi əsərlər , 2014, №2, s. 227-232

32. Pedaqogikada gender yanaşmasının qanunauyğunluqları, prinsipləri və metodları. Azərbaycan Müəllimlər İnstitutunun Xəbərləri, 2014, №1, s.24-28

33. Auditoriyadankənar tədbirlərdə gənc nəslə gender bərabərliyinin aşılanmasının imkan və yolları // Pedaqoji Universitet Xəbərləri, 2014, №2, s.339-342

34. Социально-педагогическая значимость совершенствования внутрисемейных отношений для достижения гендерного равенства // «Гілея: Науковий вісник», Національний педагогичний університет імені Драгоманова. Украінска Академія Наук. Киів, 2014, 82(3), с.355-358

35. Влияния внедрения идей гендерного равенства среди молодого поколения на женское лидерство // Вектор науки Тольяттинского Государственного Университета, 2014, № 1(16), с. 146-149

36. Возможность прививания студентам представления гендерного равенства в процессе преподования в истории Азербайджана // Теория и практика общественного развития, 2014, № 10, с.81-85

37. Tələbələrə gender bərabərliyinin aşılanmasında Avropa pedaqoji fikir tarixindən istifadənin imkanları // Humanitar fənlərin öyrənilməsinin aktual problemləri, 2016, № 1, s. 246-249

38. Pedaqoji prosesdə gender identikliyinin nəzərə alınmasının əhəmiyyəti // Pedaqoji Universitet Xəbərləri, 2017, № 1, s. 242-245

39. Gender probleminin elmi-pedaqoji ədəbiyyatda qoyuluşu // Pedaqoji Universitet Xəbərləri, 2017, №2, s.284-291

40. Şərq və Qərb ailə dəyərlərindəki gender probleminin tərbiyə prosesinə təsirinin tələbələrə çatdırılması / Ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş «Çağdaş dövr və təhsil» mövzusunda IX Ümumrespublika elmi praktik konfransının materialları. Bakı Dövlət Universiteti, 4 may 2017, s.178-180

41. Gender Stereotypes and the Role of Women in Higher Education (Azerbaijan Case Study). Education and Urban Society https://doi.org/10.1177/0013124517713613 | Thomson Reuters. First Published July 13, 2017. UnitedStates. University of Dayton. USA. 1-17

**Моллаева Эльза Алипаша кызы**

# ВОЗМОЖНОСТИ И ПУТИ ПРИВИТИЯ ЦЕННОСТЕЙ ГЕНДЕРНОГО РАВЕНСТВА СТУДЕНТАМ ВУЗОВ ПЕДАГОГИЧЕСКОЙ ОРИЕНТАЦИИ

## РЕЗЮМЕ

Диссертация состоит из введения, IV глав, охватывающих 22 подглав, выводов и списка использованной литературы. Во введении указывается актуальность темы исследования, его объект, предмет, цели и задачи, гипотеза и представленные к защите положения, излагается научная новизна, методологическое основание, практическая и теоретическая значимость.

В I главе «Теоретические и методологические основы гендерного подхода в педагогике »во I главе подробно исследованы сущность, категории и педагогические компоненты понятия «гендер», практическая и теоретическая значимостьгендерной идентичности.

В состоящей из 7 подглав II главе «Воспитание ценностей гендерного равенства как новая модель современного социально-педагогического процесса» раскрываются теоретико-методологические вопросы прививания студентам ценностей гендерного равенства, рассматриваются гендерные проблемы, существующие в системе образования Азербайджана.

В этой главе на передний план выдвинута исключительная роль семьи в гендерном воспитании студентов, значение института семьи в этой сфере обосновано с социально – педагогической точки зрения.

Во III главе «Место и роль гендерной проблемы в процессе культурно-исторического развития Азербайджанского общества» исследованы место гендерной теории в истории педагогической и философской мысли, философские основы гендерного подхода в педагогике, уровень отношений к гендерной проблеме в истории педагогической мысли Азербайджана, в народной педагогике, в мировых языках. Подробное изложение динамики развития гендерного научного направления в истории педагогической мысли и отношений к этой проблеме как восточных, так и западных мыслителей еще раз доказывает, что проблема социального неравенства в

отношениях мужчины и женщины сохраняла свою актуальность во все периоды и играла роль основного фактора в эволюции общества. В работе также рассмотрена суть реформ, проведенных Правительством АДР по гендерному равенству.

Также исследованы пути решения гендерной проблемы в постсоветский период, проанализированы ее специфические особенности, на основе художественных материалов и источников проведен сравнительный анализ образа жизни мужчин и женщин в советское время, определены причины искусственного решения «женского вопроса». Также в работе нашла свое отражение динамика развития реализации являющейся одним из важных показателей социальной структуры общества гендерной политики в современном Азербайджане, указано значение принятых в этой сфере законов, выявлено воспитательная значимость гендерной политики.

В IV главе «Прививание студентам ценностей гендерного равенства в процессе обучения и во внеаудиторных мероприятиях» определены возможности преподаваемых в вузах дисциплин «История педагогики», «Народная педагогика», «История Азербайджана» и «Конституция Азербайджанской Республики и основы права» относительно проблемы. В этой главе рассматривается значение внеаудиторных мероприятий для прививания студентам гендерного равенства, их возможности и пути относительно проблемы. В этой главе также можно ознакомиться с результатами эксперимента, проведенного в связи с проблемой.

**Mollayeva Elza Alipasha**

# POSSIBILITIES AND WAYS OF TEACHING GENDER EQUALITY VALUES TO HIGHER PEDAGOGICAL SCHOOL STUDENTS

## SUMMARY

The dissertation consists of introduction, IV chapters including to 22 sub-chapters, conclusion and used literature. The relevance of research topic, object, subject, purpose, duties, supposition, provisions provided for the defense are shown and scientific innovation, methodological basis, practical and theoretical importance are interpreted in the introduction.

Theoretical and methodological issues were explored and the essence, categories, pedagogical components of the concept of gender have been extensively studied in the first chapter named as "Theoretical and methodological bases of gender approach in pedagogy" and consisting of 3 sub-chapters.Gender problems existing in Azerbaijan education were touched, their solution ways.

At the same time, the significant role of the family in gender education of the students were put forward and in this field the importance of family institution was substantiated in socio-pedagogical point of view in this chapter.

In consists of seven subchapters II chapter entitled "Educating gene equality as a new model of modern social and pedagogiches protsessa who" studied the theoretical and methodological issues grafting gender students. We consider gender problemy existing in the education system of Azerbaijan.

This chapter also pushed to the forefront of the exceptional role of the family in gender training of students, the institution of family value in this area is justified from the socio - pedagogical point of view.

The place of gender theory in pedagogical and philosophical thoughts, philosophical basis of gender approach in pedagogy, the level of attitude to gender problems in the history of European and Azerbaijan pedagogical thoughts, peoples pedagogic, world religions have been studied in the second chapter named as "The place and role of gender problem in cultural and historical development process of the society". The dynamics of development of gender scientific direction in the history of pedagogical thoughts and extensive explanation of the attitude to this

problem of both East and West thinkers in different times proves once again that the problem of social inequality in male-female relationship maintained its relevance at all times and played a key role in the evolution of the society.The essence of reforms related to gender equality carried out by the Government of ADR have been studied in the work.

The ways of solution of the gender problem in post-Soviet period have been studied, specific characteristics were analyzed, lifestyle of men and women in the Soviet period have been comparatively analyzed on the basis of artistic materials and sources, the reasons of the expletive resolution of "Women's issue" were determined in the third chapter named as "The formation and development stages of gender theory in contemporary period".At the same time the dynamics of development of the implementation of gender policy in modern Azerbaijan have been notified which are the important indicators of the social structure of society, the importance of the laws adopted in this field and educational significance were revealed.

The opportunities of the subjects "History of Education", "People's Pedagogy", "History of Azerbaijan" and "Constitution of the Republic of Azerbaijan and Principles of Law" being taught in higher schools were identified in the terms of problem in the fourth chapter named as "Teaching of values gender equality to students in learning process and outside the auditorium". The importance of events outside of auditorium, their ways and opportunities in the terms of problem in teaching gender equality to students are being focusing on this chapter. Simultaneously, we can found the experimentation results carried out in connection with this problem in this chapter.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ ПЕДАГОГИЧЕСКИЙ УНИВЕРСИТЕТ**

***На правах рукописи***

**Эльза Моллаева Алипаша гызы**

# ВОЗМОЖНОСТИ И ПУТИ ПРИВИТИЯ ЦЕННОСТЕЙ ГЕНДЕРНОГО РАВЕНСТВА СТУДЕНТАМ ВУЗОВ ПЕДАГОГИЧЕСКОЙ ОРИЕНТАЦИИ

**5804.01 – общая педагогика, история педагогики и образования**

## АВТОРЕФЕРАТ

**диссертации на соискание учёной степени доктора наук по педагогике**

**Баку – 2018**